## Müəllimlərdən pul tələb edən direktor işdən çıxarılıb



**Müəllimlərdən pul tələb edən Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimova vəzifəsindən azad olunub.**

Trend-in əldə etdiyi məlumata görə, araşdırma aparılaraq akt tərtib olunub və məktəbin direktoru tutduğu vəzifədən azad olunub.

Xatırladaq ki, Sumqayıt şəhər 32 saylı orta məktəbin direktoru Esmira İbrahimovanın müəllimlərdən açıq aşkar pul tələb etməsi ilə bağlı səs yazısı yayılmışdı.

Məktəbin direktoru müəllimlər üçün yaratdığı ”Watsapp” qrupuna səs ataraq hər müəllimdən 50 manat tələb edib. Direktor bu pulu orta məktəbin təmiri bəhanəsi ilə tələb edib.



## 140 təşkilat iştirak edəcək

Azərbaycan jurnalistlərinin VIII qurultayı sentyabrın 24-də keçiriləcək

Sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində keçirilməsi planlaşdırılan Azərbaycan jurnalistlərinin VIII qurultayında 140 üzv təşkilat iştirakını təsdiqləyib.

(səh.4)

№ 170 (5691), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 21 sentyabr 2022-ci il (çərşənbə)



## Onkoloji klinikanın fəaliyyəti dayanmaq üzrədir

Əhliman Əmiraslanov həyəcan təbili çaldı

**”Mən hər dəfə Azərbaycanda onkoloji xəstəliklərin müalicəsinə büdcədən ayrılan vəsaitin artırılması məsələsini qaldırıram”.**

Bunu Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında komitə sədri Əhliman Əmiraslanov deyib. Komitə sədri bildirib ki, 10 ildir büdcədən ayrılan vəsait 42 milyon manatdır və artmır: "Bu gün ölkədə böyük onkoloji klinikanın fəaliyyəti dayanmaq üzrədir. Çünki artıq oradakı avadanlıqların istifadə müddəti bitir. 10-15 ildir həmin avadanlıqlar dayanmadan işləyir.

(səh.2)



## Laçının Zabux və Sus kəndləri yenidən inşa ediləcək

**Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamla Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsi məqsədilə 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 800 min manat ayrılıb.

## Tarixi fürsət pəncərəsi açılıb

Ərdoğan: “Azərbaycanla Ermənistan arasında qısa zamanda sülh sazişinin imzalanmasına inanırıq”



**Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsi ilə Cənubi Qafqazda davamlı sülh və sabitliyin təminatı üçün tarixi fürsət pəncərəsi açılıb.**

Bu barədə Birləşmiş Millətlər Təşkilatının 77-ci Baş Assambleyasında (BMT) çıxışı zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

O qeyd edib ki, Türkiyə Azərbaycanla Ermənistan arasında davam edən normallaşma proseslərini dəstəkləyərək bu fürsətin dəyərləndirilməsi üçün çox önəmli addımlar atıb.

”Son günlərdə yaşanan gərginlik bu gözəl mühitə kölgə salmış olsa da, iki ölkə arasında ən qısa zamanda hərtərəfli bir sülh sazişinin imzalanmasının mümkün olduğuna inanırıq. Azərbaycanlı qardaşlarımızın haqlarını və gələcəklərinin inşası mövzusunda verdikləri mübarizədə daima yanlarında olmağa davam edəcəyik”, - deyə o bildirib.

Ərdoğan bölgədəki nəqliyyat kommunikasiyaların ən qısa zamanda açılmasının hər kəsin rifahına qatqı olacağını vurğulayıb.

# Sülh prosesinə qayıtmaq vacibdir

Blinken Bayramov və Mirzoyanı ayın sonuna qədər yenidən görüşməyə çağırıb



“Aydın görünür ki, Vaşinqton qlobal düzənin Cənubi Qafqaz teatrında hegemonluq taxtı qura bilməyib”

**ABŞ Dövlət katibi Entoni Blinken son toqquşmalardan sonra ilk birbaşa danışıqlar üçün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanı qəbul edib.**

Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays bildirib.

Onun sözlərinə görə, Dövlət katibi Blinken gələcək eskalasiyanın qarşısının alınmasının və sülh prosesinə qayıtmağın vacibliyini vurğulayıb.

(səh.2)

## Bina hər an uça bilər

Zığ sakinləri qorxu içində yaşayırlar



**Xətai rayonu Zığ yolu 27 ünvanında yerləşən binanın sakinləri qorxu içində yaşayır. Çünki bina qəzalı vəziyyətdədir, hər an faciə yaşana bilər. Bununla bağlı Trend-ə sakinlər məlumat verib. Sakinlərin sözlərinə görə, bina dağılmaq üzrədir, hər an uçqun ola bilər:**

”Öz evimizdə qorxa-qorxa yaşayırıq. Bu bina 94 il əvvəl tikilib. İstismar müddəti çoxdan başa çatıb”, - onlar bildirib. Məsələ ilə bağlı Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov Trend-ə bildirib ki, rayonda 99 qəzalı bina var və bir neçə ay bundan qabaq bütün qəzalı binalara yerində baxış keçirilib.

(səh.3)



## “Ailə həkimi haqqında" qanun layihəsi hazırlanması təklif olunub

**“Ailə həkimi haqqında” qanun layihəsi hazırlanmalıdır”.**

Bunu Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında komitənin sədri Əhliman Əmiraslanov deyib.

Komitə sədri bildirib ki, belə qanun layihəsinin hazırlanmasına ehtiyac var: ”Artıq TƏBİB-ə də yeni rəhbər təyin edilib. İcbari Tibi Sığorta üzrə Dövlət Agentliyinin rəhbərliyi TƏBİB rəhbərliyi ilə görüşərək bu qanun layihəsinin hazırlanmasına başlanmalıdır. Bu sahədə cavabdeh komitənin üzvü Məlahət İbrahimqızıdır. Beynəlxalq təcrübədə də bu var”.

## 7 nəfər vəfat edib

259 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 259 yeni yoluxma faktı qeydə alınıb, 312 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 7 nəfəri vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 819 847 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 808 362 nəfər müalicə olunaraq sağalıb, 9 893 nəfər vəfat edib, aktiv xəstə sayı 1 592 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 856, hazırkı dövrədək isə 7 221 407 test aparılıb.*

## Gəncədə 17 yaşlı oğlan qətlə yetirilib

**Gəncə şəhərində qətl törədilib.**



Gəncə şəhər prokurorluğundan verilən məlumata görə, sentaybrın 20-i saat 06 radələrində 2005-ci il təvəllüdlü Həsən Novruzovun aldığı xəsarətdən xəstəxanada ölməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub.

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 1984-cü il təvəllüdlü Azər Mövsümovun sentyabrın 19-u saat 23 radələrində küçədə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla Həsən Novruzova xəsarət yetirməsi nəticəsində sonuncunun almış olduğu xəsarətdən xəstəxanada ölməsinə əsaslı şübhələr müəyyən edilib.



## İranda baş verən hadisələrdə siyasi çalarlar görünür

Proseslərin pərdə arxasında hakimiyyət uğrunda mübarizə gedir

(səh.3)

## "Göyçə-Zəngəzur Respublikası"nın elan edilməsi yanlış addımdır

Bu iki qardaş ölkənin münasibətlərinə xələl gətirmək istəyən qüvvələrin sifarişidir



(səh.4)

# Sülh prosesinə qayıtmaq vacibdir

## Blinken Bayramov və Mirzoyanı ayın sonuna qədər yenidən görüşməyə çağırıb



**ABŞ Dövlət katibi Entoni Blinken son toqquşmalardan sonra ilk birbaşa danışıqlar üçün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanı qəbul edib.**

Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays bildirib.

Onun sözlərinə görə, Dövlət katibi Blinken gələcək eskalasiyanın qarşısının alınmasının və sülh prosesinə qayıtmağın vacibliyini vurğulayıb.

"Onlar növbəti addımları müzakirə ediblər və Dövlət katibi tərəfləri ayın sonuna qədər yenidən görüşməyə çağırıb", - Preyas deyib.

**Entoni Blinken Ermənistan və Azərbaycan xarici işlər nazirlərinə görüş üçün təşəkkür edib:** "Hər iki liderlə, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla telefon danışığımda onlar sülh üçün hazır olduqlarını bəyan ediblər. Güclü, davamlı diplomatik çərçivədə işləmək hamı üçün ən yaxşı yoldur. Ermənistan və Azərbaycan arasında fikir ayrılıqlarının hərbi yolla həlli yoxdur, lakin fikir ayrılıqlarını diplomatiya yolu ilə həll edən davamlı sülhə aparan yol var".

**Üçtərəfli görüşü "Şərq"ə dəyərləndirən siyasi şərhçi Aqşin Kərimov deyib ki, Blinkenin Ceyhun Bayramovla Ararat Mirzoyanı görüşdürməsi Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində ABŞ-ın rolunu qabartmaqdır.** Analitikə görə, sərhəddəki genişmiqyaslı döyüşlərdən sonra ortaya çıxan düyünlərin açılmasında ABŞ-ın təşəbbüskarlığı daha çox regionda Rusiya orbitinin daralmasına xidmət edir: "Hərçənd, sərhəd toqquşmalarının yedəyində ABŞ Cənubi Qafqazdakı regional dinamikaya əhəmiyyətli təsir etmək imkanlarını Rusiyaya uduzdu. İndi Vaşinqton itkilərindən irəli gələn dilemmaları çözməyə çalışır və vahid yanaşma tətbiq etmək istəyir. Hərbi əməliyyatlar və onun Azərbaycanın xeyrinə dəyişilən siyasi xəritə üzərindəki nəticələri Vaşinqtonu passivlikdən çıxarıb aktiv hərəkətlərə vadar edir. ABŞ-ın dünya hegemonluğunun Cənubi Qafqaza keçidinin qarşısında Rusiya dayanır. Vaşinqton ehtiyat edir ki, Moskva dominantlığını Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində saxlamağı bacaracaq. Mütləq qeyd edilməlidir ki, ABŞ qlobal düzənin Cənubi Qafqaz teatrında hegemonluq taxtı qura bilməyib. Yaranan boşluğu isə onun rəqibi olan Rusiya hərbi-siyasi iştirak sferasında, digər "düşməni" Çin isə regional iqtisadi layihələrdə doldurmağa can atır".

> "Aydın görünür ki, Vaşinqton qlobal düzənin Cənubi Qafqaz teatrında hegemonluq taxtı qura bilməyib"

A.Kərimov bəyan edib ki, Rusiya Cənubi Qafqaza özünün müstəsna təsir dairəsi kimi baxmaqda prinsipialdır: "Məsuliyyət dərəcəsinin bölüşdürülməsi və üzərindəki yükü azaltmaq üçün isə Türkiyə ilə birgə maraqların formalaşmasına çalışır. ABŞ da geosiyasi məqsədlər üçün "dinc dayanmır". Rusiya Ukraynadakı bəzi hərbi-siyasi uğursuzluqlar kompleksini özünün canlanmasında fürsətlərə çevirmək üçün Cənubi Qafqaza dair hansısa yeni plan hazırlayır. ABŞ Rusiyaya qarşı səyləri gücləndirmək kampaniyasında Türkiyəni öz tərəfində tutmaq niyyətindədir. Amma yürütdüyü siyasət Ankaranı Moskva ilə yaxınlaşdırır.

Görünür, Amerika problemlər və çətinliklərlə üzləşsə də, Cənubi Qafqaz süfrəsinə əliboş gəlmir. Ağ Evin Cənubi Qafqaz siyasətində iddialı gündəlik formalaşdırmasının səbəbləri sırasında onun Gürcüstanı da əldən buraxmamaq prinsipləri dayanır. Kreml maraqlarının sıxışdırılmasına cavab olaraq ABŞ-a qarşı Gürcüstan kartını oynaya bilər. Azərbaycan öz ordusunu gücləndirməklə və Ermənistana qarşı hərbi əməliyyatlar senarisini masada saxlamaqla Rusiya və Qərb arasındakı tarazlığı nəzərə alaraq faydalı nəticələr hasil olunmasına çalışacaq. Bakının balans siyasəti o məna hasil etmir ki, özünün təhlükəsizlik maraqlarını balansın tərəfindəki uclara qurban verəcək. Azərbaycan hələlik Rusiyanın Ermənistana qəzəbli münasibətindən istifadə edir, ancaq Qərbdə İrəvana qarşı hirsli bir ox yaranmayıb. Azərbaycan regional və beynəlxalq mövqelərdə balans dəyişsə belə, Ermənistan üzərindəki təzyiqlərini saxlayacaq və bunu mümkün hərbi əməliyyatlarla ədəbiləşdirəcək".

**İsmayıl Qocayev**

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 19 sentyabr tarixində BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində, ABŞ dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla üçtərəfli görüşdə Ermənistanın təxribatları barədə danışıb.**



# Ceyhun Bayramov Blinken və Mirzoyanla görüşdə Ermənistanın təxribatlarından danışıb

*Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən məlumata görə, görüş zamanı, Ceyhun Bayramov post münaqişə dövründə bölgədə sülhün təmin olunması və bu istiqamətdə zəruri addımlar barədə Azərbaycanın mövqeyini diqqətə çatdırıb.*

Ceyhun Bayramov 12-14 sentyabr tarixlərində Ermənistanın Azərbaycana qarşı təxribatlar və hücumlar həyata keçirməklə toqquşmalara səbəb olduğunu, bir neçə saat ərzində əldə edilmiş ilkin atəşkəsin də Ermənistan tərəfindən pozulması faktını və bununla əlavə itkilərə səbəb olduğunu vurğulayıb. Azərbaycanın bölgədə genişmiqyaslı yenidənqurma işləri həyata keçirən və keçmiş məcburi köçkünləri bölgədə yerləşdirən tərəf kimi sabitliyin pozulmasında maraqlı olmadığını bildirib.

Nazir Ermənistanın 30 il ərzində ölkəmizin beynəlxalq tanınmış ərazilərinin işğalının törətdiyi dərin fəsadlara baxmayaraq, 44 günlük Vətən müharibəsindən dərhal sonra sülh müqaviləsi imzalanması təklifini irəli sürdüyünü və bu istiqamətdə ardıcıl təşəbbüslərlə çıxış etdiyini xatırladıb. Azərbaycanın Ermənistanla normallaşma prosesi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, habelə humanitar istiqamətlərdə səy göstərməsinə baxmayaraq, Ermənistanın proseslərə maneçilik törətdiyini, üçtərəfli bəyanatlar çərçivəsində öhdəliklərini kobud şəkildə pozduğunu bildirib.

Ceyhun Bayramov liderlər arasında üçtərəfli bəyanatlara və Brüssel görüşünün nəticələrinə uyğun olaraq davamlı sülhün təmin edilməsi istiqamətində təxirəsalınmaz danışıqlara hazırlığını bir daha diqqətə çatdırıb.

**Aygün**

# Onkoloji klinikanın fəaliyyəti dayanmaq üzrədir

## Əhliman Əmiraslanov həyəcan təbili çaldı



**"Mən hər dəfə Azərbaycanda onkoloji xəstəliklərin müalicəsinə büdcədən ayrılan vəsaitin artırılması məsələsini qaldırıram".**

Bunu Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında komitə sədri Əhliman Əmiraslanov deyib. Komitə sədri bildirib ki, 10 ildir büdcədən ayrılan vəsait 42 milyon manatdır və artmır: "Bu gün ölkədə böyük onkoloji klinikanın fəaliyyəti dayanmaq üzrədir. Çünki artıq oradakı avadanlıqların istifadə müddəti bitir. 10-15 ildir həmin avadanlıqlar dayanmadan işləyir. Amma büdcə müzakirələrində mən bu məsələni qaldıranda deyirlər, dürüstləşmədə baxılacaq və s. Amma bu vəsait artmır. Digər tərəfdən, büdcədən vəsaitin artması ilə bu problemin həlli mümkün deyil. Bunun həlli onkoloji xəstəliklərin də icbari tibbi sığorta vasitəsilə qarşılanmasıdır. Bu məsələ öz həllini tapmalıdır".

**İsmayıl**

# Amerikanın istədiyi dünya nizamı hələ qurulmayıb

## Hikmət Babaoğlu: "Amerikanın Cənubi Qafqaza münasibətdə yol verdiyi qeyri-proporsional siyasətin nə ilə nəticələnəcəyini bir müddət sonra görə biləcəyik"



**ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri və İrəvanda Azərbaycan əleyhinə verdiyi açıqlamalar Vaşinqtonun Cənubi Qafqazdakı maraqlarına ziddir. ABŞ-da erməni lobbisi və onlara bağlı bir qrup konqresmen ölkəmizi hədəf seçsə də, Amerikanın təhlükəsizlik maraqları Azərbaycanla hərtərəfli əməkdaşlığı diktə edir.**

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində kiçik də olsa pay sahibi olması Amerikanın maraqlarına uyğundur. Digər tərəfdən Azərbaycanın Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunu oynaması da Vaşinqtonun diqqət mərkəzindədir. Buna baxmayaraq, Nensi Pelosi kimilərinin anti-Azərbaycan fəaliyyəti ölkəmizdə Amerikaya qarşı haqlı narazılıq yaradır. Bunu Amerikanın rəsmi qurumları da anlamamış deyil. Pelosinin İrəvanda anti-Azərbaycan açıqlamalarından sonra dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng etdi. Ekspertlərin fikrincə, bu zəngin əsas məqsədi Pelosinin İrəvandakı açıqlamalarını yumşaltmaq məqsədi daşıyırdı. Yəni Vaşinqton Bakıya belə mesaj vermək istəyib ki, Amerikada hamı Pelosi kimi düşünmür.

**Millət vəkili Hikmət Babaoğlu deyib ki, Pelosinin Ermənistana səfəri birdən çox məqsəd daşıyır. Deputatın sözlərinə görə, şərti olaraq bu məqsədləri xarici və daxili olmaqla iki hissəyə bölmək olar:** "Pelosi aralıq seçkilərdə öz əlini daha da gücləndirmək, yenidən spiker seçilmək və ABŞ-da olan erməni lobbisinin dəstəyini qazanmaq üçün bu addımları ata bilər. O hesab edir ki, dəstək olarsa, Nümayəndələr Palatasında mövqeyi daha da güclənər. Amma Pelosinin səfərini sadəcə bu faktorla izah etmək düzgün olmaz. Ona görə ki, bəzi ölkələr hələ də Cənubi Qafqazı öz geostrateji ambisiyalarının rəqabət bölgəsinə çevirməyə çalışır. Bu kontekstdə yanaşsaq, deyə bilərik ki, ABŞ Nümayəndələr Palatasının spikeri regiona birtərəfli səfər etməklə öz mövqeyini nümayiş etdirmiş oldu. Kimin yanında olduğunu dünyaya göstərməyə çalışdı. Bu da natamam siyasətdir. Çünki ABŞ-ın qurmağa çalışdığı dünya nizamı hələ qurulmayıb. Hadisələrin sonrakı gedişi, Amerikanın Cənubi Qafqaza münasibətdə yol verdiyi qeyri-proporsional siyasətin nə ilə nəticələnəcəyini bir müddət sonra görə biləcəyik".

**Parlament üzvü qeyd edib ki, bütün hallarda səfərdə Nensi Pelosinin səsləndirdiyi fikirlər əsassız, qeyri-obyektivdir:** "Azərbaycan heç bir ölkəyə qarşı təcavüz etməyib və dünyada ermənilərə qarşı soyqırımı törətməyib. Əksinə, ermənilər Xocalıda Azərbaycan xalqına qarşı soyqırımı törədiblər. Nəyə görə 2 il əvvəl xanım Pelosinin yadına "soyqırımı" düşmürdü? Niyə Azərbaycanın ərazi bütövlüyünün pozulması haqqında bəyanat vermirdi? Belə olan halda ABŞ-ın Nümayəndələr Palatasının sədrinin İrəvana birtərəfli səfərinin nə qədər qərəzli olduğunu və orada səsləndirilən fikirlərin heç bir obyektiv əsasının olmadığını görürük. Azərbaycan o fikirlərin heç birini qəbul etmir".

**İsmayıl**

**İsmayıl Qocayev**

**Dünən Bakıda "Azərbaycanda mədəniyyət iqtisadiyyatı: Şuşadan inkişaf impulsları" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib. Tədbirdə Mədəniyyət naziri Anar Kərimov, Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev, deputat Qənirə Paşayeva, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev və xarici nümayəndələr iştirak ediblər. Nazir Anar Kərimov bildirib ki, Azərbaycan artıq özünün ən önəmli səhifələrini yaşayır:**




# Yaradıcı mühitə şərait yaratmalıyıq

## Çünki yaradıcı sənayelərin iqtisadiyyata töhfəsi daim gündəmdədir

"44 günlük müharibədən, torpaqlar azad ediləndən sonra Azərbaycan dövləti qarşısında ərazilərin dirçəldilməsi kimi müqəddəs vəzifə durur. Ən önəmli prosesdən biri də mədəniyyətin dirçəldilməsi, adət-ənənələrin həmin torpaqlara qaytarılmasıdır. Bu gün artıq yaradıcılığın və mədəni dirçəlmənin iqtisadi tərəfini düşünmək lazımdır. Çünki hər yaradıcı insanı yaradıcılığın davamlı olması üçün iqtisadi tərəf də maraqlandırır. Bugünkü tədbir də buna həsr olunub. Hesab edirik ki, dövlət qurumu kimi yaradıcı birliklərə, ittifaqlara müdaxilə etmədən yaradıcı mühitə şərait yaratmalıyıq. Çünki yaradıcı sənayelərin iqtisadiyyata töhfəsi daim gündəmdədir. 2030-cu il üçün prioritet sahələrdən biri də yaradıcı sənayelərdir. Ən vacib məqsədlərimizdən biri yaradıcı sənayelərə özəl sektor tərəfindən investisiya cəlb edilməsi, vergi güzəştlərinin göstərilməsidir".

**Millət vəkili Qənirə Paşayeva beynəlxalq tədbirin Şuşada, daha sonra Bakıda keçirilməsinin rəmzi mənası olduğunu deyib:** "İştirakçıların Şuşada düşmən barbarlığını görmələri vacib idi. Bununla onlar qələbəmizin qurucu mədəniyyətin dağıdıcı mədəniyyət üzərində qələbəsi olduğunu anlayırlar. Mədəniyyət sahəsi Azərbaycan üçün həmişə prioritet olub. Mədəniyyət iqtisadiyyatına təkcə gəlir mənbəyi kimi baxmamalıyıq. Bu anlayış dövlət, xalq, onun mədəniyyəti üçün müxtəlif imkanlar açır".

**Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev azad olunan ərazilərdəki dağıntıları dünya müharibələrindən sonra Avropada müşahidə olunan mənzərə ilə müqayisə edib:** "Azad olunan ərazilərdə ən çox mədəniyyət abidələri məhv edilib. Düşmən bununla DNT-ni silməyə çalışıb. Bildiyiniz kimi, Avropada müharibədən sonra sürətli bərpanın səbəbi məşhur siyasətçiləri, biznesmenləri dəvət edərək dağıntıların göstərilməsi olub. Bununla da büdcədən kənar investisiya cəlb edilməklə şəhərlər bərpa olunub. Mədəniyyətin böyük potensialı var. Bəzən onu anlaya bilmirik. Ənənəvi istiqamətlərdən kənara çıxa bilmirik. Mədəniyyət hazırda rəqabətə girir. Bu, yutub üzərindən paylaşmaqdan getmir. Sürətli olmaq lazımdır. Hətta gecikmişik. Dünəndən başlamalıydıq".

**İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev vurğulayıb ki, Azərbaycanda yaradıcılar var, sənaye yoxdur:** "Ölkədə neft-qaz, kimya sənayesi barədə danışmaq mümkündür. Ən böyük problemimiz yaradıcı sənayenin olmamasıdır. Biz sistemli yanaşma tətbiq etməliyik".

Tədbir panel müzakirələrlə davam edib.

# Fransa beynəlxalq öhdəliyə hörmətlə yanaşmır

## Hər bir ölkə öz ərazisində yerləşən diplomatik korpusun qorunmasında borcludur



**İsmayıl Qocayev**

**Ermənilərin xarici ölkələrdəki Azərbaycan səfirliklərinə hücumları intensiv hal almaqdadır. Son olaraq sentyabrın 18-də Azərbaycanın Fransadakı səfirliyinə basqın edilib. Hətta bu hadisə səbəbilə Fransanın Azərbaycandakı səfiri Zakari Qross Xarici İşlər Nazirliyinə çağırılıb və XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib. Livandakı səfirliyimizin qarşısında isə analoji təxribat baş verib.**

Xatırladaq ki, avqustun 4-də Böyük Britaniyadakı səfirliyimizə "Mehdi qulluqçuları" adlı dini radikal təşkilatın üzvləri hücum çəkmişdilər. Xarici ölkələrin Azərbaycandakı səfirliklərində mühafizəçilərin çoxu azərbaycanlıdır. Bakıda asanlıqla səfirlik binasına daxil olmaq mümkün deyil. Yəni Azərbaycanda ABŞ, Böyük Britaniya, Fransa və digər ölkələrin səfirliklərinin qorunması Azərbaycan polisi tərəfindən ciddi şəkildə həyata keçirilir. Nəzərə almaq lazımdır ki, səfirlik hansısa hərbi obyekt, qala deyil. Orada çalışan diplomatlar da polis, hərbçi deyillər. Ona görə də diplomatları qəbul edən ölkə təhlükəsizliyi təmin etməyə borcludur. Bu, Vyana Konvensiyası ilə təsdiq edilmiş qarşılıqlı öhdəlikdir. Təbii ki, səfirliklərin daxilində də müəyyən təhlükəsizlik tədbiri görülə bilər. Amma bu o demək deyil ki, səfirliyimizin olduğu ölkə qanunların pozulmasına imkan verməli, beynəlxalq öhdəliklərdən yan keçməlidirlər.

**Millət vəkili Azər Badamov "Şərq"ə deyib ermənilərin xəmiri təxribat və düşmənçilik qanı ilə yoğrulub. Deputat bildirib ki, həm döyüş, həm də informasiya meydanında uduzmuş ermənilər son imkanlarını xarici ölkələrdə yerləşən səfirliklərimizin binalarına hücumlarla göstərməklə öz düşmənçiliklərini ifadə edirlər:** "Əvvəlcə Livanda, sonra da Fransada səfirlik binalarımıza edilən erməni hücumları bunun göstəricisidir. Ermənilər ancaq özlərinin təsiri altındakı dövlətlərdə belə təxribat aktlarına cəhd edə bilirlər. Fransa hüquq-mühafizə orqanlarının erməni təxribatının qarşısının alınmasına ciddi yanaşmaması hesab edirəm ki, bu ölkənin ermənipərəst mövqedə olduğunun aydın ifadəsidir. Halbuki, hər bir ölkə öz ərazisində yerləşən diplomatik korpusun qorunmasında borcludur. Amma Fransa dövləti bu beynəlxalq öhdəliyə hörmətlə yanaşmır. Azərbaycan səfirliyinin əməkdaşlarının vətənpərvərliyi ermənilərin hər bir hücumunun qarşısını almağına qadirdir. Fransada səfirliyimizdə olan bir əməkdaşın qətiyyəti və iradəsi yüz ermənidən güclüdür. Ona görə bir daha deyə bilərəm ki, erməni lobbisinin informasiya müharibəsi və dövlət rəhbərlərinin ələ alınması siyasəti Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına mane ola bilməz. Azərbaycan sülh və ədalətin tərəfdarıdır və qarşı tərəfi də sülhə və ədalətə hörmət etməyə məcbur edəcəyik".



# Bina hər an uça bilər

## Zığ sakinləri qorxu içində yaşayırlar

**Xətai rayonu Zığ yolu 27 ünvanında yerləşən binanın sakinləri qorxu içində yaşayır. Çünki bina qəzalı vəziyyətdədir, hər an faciə yaşana bilər. Bununla bağlı Trend-ə sakinlər məlumat verib. Sakinlərin sözlərinə görə, bina dağılmaq üzrədir, hər an uçqun ola bilər:**

"Öz evimizdə qorxa-qorxa yaşayırıq. Bu bina 94 il əvvəl tikilib. İstismar müddəti çoxdan başa çatıb", - onlar bildirib. Məsələ ilə bağlı Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov Trend-ə bildirib ki, rayonda 99 qəzalı bina var və bir neçə ay bundan qabaq bütün qəzalı binalara yerində baxış keçirilib. "Biz səlahiyyətimiz çərçivəsində bütün işləri görürük. Qəzalı binalar barədə məlumatlar toplanılaraq müvafiq qurumlara bildirilib. Göstəriş gəldiyi halda bina ilə bağlı tədbir görüləcək", - deyə P.İmanov bildirib.

**Ramil Osmanlı:**
"Qəzalı binalara özəl şirkətlər sahib çıxmırsa, problem dövlət vəsaiti hesabına həllini tapmalıdır"

Paytaxtda analoji vəziyyətdə olan binalar var. Az da sayılmaz. Xatırladaq ki, Bakı şəhərində qəzalı vəziyyətdə olan, öz resursunu başa vurmuş çoxmənzilli yaşayış binalarının inventarizasiyası və bu binalarda yaşayan sakinlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi məqsədilə bu ilin mart ayında müvafiq komissiya yaradıldı. Bu barədə Bakı Şəhər İcra Hakimiyyətinin məlumatında qeyd olunurdu. Məlumata görə, icra hakimiyyəti başçısının müvafiq Sərəncamına əsasən yaradılan komissiyanın tərkibinə şəhər və paytaxt rayonları icra hakimiyyətlərinin məsul nümayəndələri daxil edilib. Komissiyaya Bakı şəhərinin ərazisində yaşayış üçün təhlükəli olan yaşayış binalarının inventarizasiyasının aparılması və bununla bağlı təkliflərin hazırlanmasının təmin edilməsi tapşırılıb. Sərəncamda Bakı şəhərinin rayon icra hakimiyyətləri başçılarının balans sahibindən asılı olmayaraq qəzalı binalarda yaşayan sakinlərin təhlükəsizliyinə görə şəxsən məsuliyyət daşıdıqları xüsusi olaraq vurğulanırdı. Artıq Komissiya üzvlərinin rayonlar üzrə inventarizasiya işlərinə başladıqları da bildirilirdi. Görünən budur ki, ortada əsaslı bir nəticə yoxdur. Hər halda Xətai rayonu, Zığ yolu, 27. ünvanında konkret yoxdur, olsaydı, sakinlər gecə yatanda "kəlməyi-şəhadət" gətirməzdi.

**Ümumiyyətlə, qəzalı binalardan köçürülmə prosesi niyə yubanır? "Əmlak" Ekspert Mərkəzinin rəhbəri Ramil Osmanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, burada əsas səbəb qəzalı binaların yerləşdiyi ərazilərin nə dərəcədə özəl tikinti şirkətlərinin maraq dairəsində olmasıdır:**

- Qəzalı, istismar müddəti bitmiş, yaşayış şərtləri standartlara cavab verməyən binaların sökülməsi, sakinlərin köçürülməsi və yerləşdirilməsi prosesi ya dövlət tərəfindən həyata keçirilir, ya da özəl tikinti şirkətləri tərəfindən. Dövlət tərəfindən özəl şirkətlərə bu binaların sökülməsi, ərazidə tikintinin aparılması, sakinlərin yerləşdirilməsi təklif edilir. Lakin bəzən tikinti şirkətləri bu təklifləri nəzərə almır, qəbul etmir. Tikinti şirkətləri ən əsası, gəlirə, əldə ediləcək mənfəətə baxır. Ərazi gəlirlidirsə, orada tikiləcək binadan mənfəət əldə ediləcəksə, təklifi qəbul edir və layihə icrasına başlayırlar. Yox əgər, ərazi qeyri-likviddirsə - yəni, gəlir vəd etməyən və ya az gəlirli ərazidirsə, orada tikinti aparmaq, yeni yaşayış binası tikmək mənfəət vəd etmirsə, təklifdən boyun qaçırırlar. Məsələn, paytaxtın "Papanin", "Kubinka", "Alatava" kimi ərazilərinə tikinti şirkətləri meyillidir, çünki bu ərazilər şəhərin mərkəzi, əhalinin sıx yaşadığı, dövlət, özəl qurumların sıx yerləşdiyi yerlərdir. Belə ərazilərdə tikinti aparmaq sərfəlidir, mənzillərin qiyməti də yüksək olur, icarə haqqı da yüksəkdir. Adətən hündürmərtəbəli binaların ilk mərtəbələri marketlərə, müxtəlif yönümlü iaşə obyektlərinə icarəyə verilir. Şəhərin mərkəzi, əhali sıxlığı gur olan yerlərində fəaliyyət göstərən iaşə obyektlərində gəlir daha yüksəkdir, nəinki mərkəzdən uzaq, ətraf yerlərdə. Ona görə də tikinti şirkətləri mənfəəti az ərazilərə maraq göstərmir. Qəzalı binaların da "ömrü" uzanır.

Amma "ömrü" uzanan qəzalı binalar sakinlərin də ömrünü uzadırmı, bu, artıq üzərində düşünülməli sualdır. **R.Osmanlı bildirdi ki, qəzalı binalara özəl şirkətlər sahib çıxmırsa, problem dövlət vəsaiti hesabına həllini tapmalıdır:**

- Qəzalı, istismar müddəti bitmiş yaşayış binalarıyla bağlı Nazirlər Kabinetinin qərarı var, Fövqəladə Hallar Nazirliyi rəy verir, dövlət vəsaiti hesabına ya təmir edilir, ya da sökülür, sakinlər köçürülür. Biz bilmirik, haqqında danışılan bina (Xətai rayonu, Zığ yolu, 27 ünvanı) Bakı Şəhər İcra Hakimiyyətinə təqdim edilmiş "qəzalı binalar siyahısında" varmı, yoxmu. Binaların qəzalı olduğu müəyyən edildikdən sonra heç bir özəl tikinti şirkəti təklifi qəbul etmirsə, binanın təmiri və ya sökülməsinə dövlət büdcəsindən vəsait ayrılmalıdır. Adətən büdcə vəsaitləri ilin sonunda, növbəti il üçün müəyyənləşir. Ümid edək ki, haqqında danışılan binaya da dövlət vəsaiti ayrılmış olacaq və sakinlərin təhlükəsizliyi təmin ediləcək.

**Məlahət Rzayeva**

# İranda baş verən hadisələrdə siyasi çalarlar görünür

## Proseslərin pərdə arxasında hakimiyyət uğrunda mübarizə gedir

**İranda etiraz dalğası getdikcə böyüyür. Hicaba görə saxlanılan Məhsa Əmini adlı qızın ölümü ilə bağlı polis və etirazçılar arasında hər gün qarşıdurmalar baş verir. Paytaxt Tehranda da etiraz aksiyası keçirilib. Tehranın Vəliəsr xiyabanında keçirilən aksiyanı dağıtmaq üçün xüsusi qüvvələr cəlb olunub.**

Aksiya iştirakçıları hökumət əleyhinə şüarlar səsləndiriblər. Təhlükəsizlik qüvvələri ilə aksiyaçılar arasında qarşıdurma yaşanıb və etirazçılar polis maşınını aşırıblar. Analoji aksiya Məşhəd şəhərində də keçirilib. Bəzi əyalətlər də mağaza sahibləri etiraz əlaməti olaraq dükanlarını açmayıblar. Müxtəlif şəhərlərdə qadınlar etiraz məqsədilə baş örtüklərini yandırıb, saçlarını kəsiblər. İran parlamentinin spikeri Məhəmməd Baqir Qalibaf deyib ki, əxlaq təhlükəsizlik patrulunda islahatlar aparılana qədər hicab taxmadığı üçün öldürülən Məhsa Əminin işi ilə bağlı məsələ parlamentin gündəmində olacaq. Qalibaf bildirib ki, parlamentin daxili işlər komissiyası Baş Polis Komandanlığı tərəfindən



əxlaq təhlükəsizlik patrullarının həyata keçirdiyi proses və üsulları araşdırmalıdır.

**Cənub qonşumuzdakı etiraz dalğasını "Şərq"ə təhlil edən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, İrandakı etirazlar gənc bir qızın ölümü ilə başlasa da, aksiyalarda, səslənən şüarlarda siyasi çalarlar özünü göstərir.** Analitik vurğulayıb ki, İrandakı etiraz aksiyalarından istifadə edən müəyyən qüvvələr prosesin qızışmasını, gərginliyin artmasını istəyirlər: "İranla ABŞ arasında danışıqlar gedirdi, hətta bir sıra razılaşmalar da var idi. Vyanada isti təmaslar reallaşırdı. Amma İran daxilində ABŞ-la yaxınlaşmaya qarşı çıxan dairələr var. Məsələn, SEPAH gücləri bunu qəbul etmirlər. Vəziyyətin gərginləşməsində, baş verən sonuncu hadisədə onların əli var. Yəni burada daxili qüvvələrdən, hakimiyyət uğrunda mübarizədən söhbət gedir, xarici amilləri isə o qədər önəmli görmürəm. Məqsəd ABŞ-İran arasında nüvə sazişi üzrə gedən danışıqları pozmaqdır".

*Ekspertin qənaətinə görə, etirazlar geniş miqyas alarsa, artan gərginlik və qarşıdurmalar hakimiyyətin dəyişməsinə də gətirib çıxara bilər:* "Biz İranın daxili işlərinə qarışmırıq. Təbii ki, soydaşlarımıza qarşı siyasi-repressiv hərəkətlər olarsa, buna reaksiyamız sərt olacaq. İndiki halda qonşu ölkədə baş verənləri yaxından izləyirik və prosesi etiraz aksiyası, pərdə arxasında isə hakimiyyət uğrunda mübarizə kimi dəyərləndiririk".

**İsmayıl Qocayev**



# Üçtərəfli görüşdən yayınmaq olmazdı

## "Çünki Amerikanın yalnız Ermənistan tərəfindən məlumatlandırılması bizim xeyrimizə deyil"

**20 sentyabrda Nyu-Yorkda Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov, ABŞ dövlət katibi Entoni Blinken və Ermənistan XİN rəhbəri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.** E.Blinken görüş üçün tərəflərə təşəkkür edib. Son toqquşma zamanı həlak olanların doğmalarına və dostlarına başsağlığı verib. O qeyd edib ki, Ermənistan və Azərbaycan arasında fikir ayrılıqlarının hərbi yolla həlli yoxdur, lakin fikir ayrılıqlarını diplomatiya yolu ilə həll edən davamlı sülhə aparan yol var.

Heç şübhəsiz, Bayramov Blinkenə əsl həqiqətləri anlatmağa çalışıb

**Görüşün əhəmiyyətini şərh edən BDU-nun professoru, politoloq Əlimusa İbrahimov "Şərq"ə bildirib ki, artıq Amerika da ciddi şəkildə tərəflər arasında yekun sülhün əldə olunması üçün Ermənistanın Azərbaycana qarşı torpaq iddialarından əl çəkməli olduğunu başa düşür:**

"Buna görə də rəsmi Vaşinqton indi Ermənistana ekspansionist siyasətindən əl çəkməsi üçün təsir göstərməlidir. Amma biz bunun əksini görürük.

Onlar Ermənistanı daha da qızışdıraraq onun təxribatçı hərəkətlərinə rəvac verirlər. Biz bundan əvvəlki 30 il müddətində Amerika tərəfindən özümüzə qarşı heç zaman səmimi münasibət görmədik və bundan sonra da bunu gözləməyin əhəmiyyəti yoxdur.

Sadəcə, Azərbaycan XİN başçısı Ceyhun Bayramovun Blinkenin vasitəçiliyi ilə erməni nazirlə görüşməsi zəruri idi. Çünki Amerikanın yalnız Ermənistan tərəfindən məlumatlandırılması bizim xeyrimizə deyil.

Düşünürəm ki, Ceyhun Bayramov Blinkenə həqiqəti görməkdə müəyyən qədər yardım edə, onun "gözlərini aça bilər". Nazirimiz heç şübhəsiz, Nensi Pelosinin Ermənistana səfəri və onun orada Azərbaycan əleyhinə yersiz bəyanatlar səsləndirməsinə də münasibət bildirib.

Amerika yüksək rütbəli rəsmisi Azərbaycan XİN başçısının gətirdiyi arqumentləri əsaslı saya bilər. Amma Bayden administrasiyasının son dövrlər apardığı siyasət heç də Azərbaycanın mənafeyinə xidmət etmir və bu istiqamətdə biz diplomatik kanallar, lobbi şirkətləri vasitəsi ilə ciddi iş aparmalıyıq".

**Günəş Mərd**

# Pelosi yenidən aqressivliyi qızışdırır

## Bu qadın Amerikanın prinsipial mövqeyinə zidd çıxış edir

**Sentyabrın 20-də Milli Məclisin Regional məsələlər komitəsinin payız sessiyasında ilk iclası keçirilib. İclasda Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribat nəticəsində qəhrəmancasına şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla ehtiramla yad edilib.**



Komitə sədri Siyavuş Novruzov bildirib ki, Vətən uğrunda gedən döyüşlərdə əsgərlərimizin göstərdiyi şücaət hər bir Azərbaycan vətəndaşına bir örnəkdir. Sonra komitə sədri gündəliyə 4 məsələnin daxil edildiyini deyib. O, əvvəlcə, Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Regional məsələlər komitəsində görülən işlər barədə məlumat verib. Bildirilib ki, ötən sessiyalarda komitənin 4 iclası keçirilib. Şuşa şəhərində "Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yeni regional, sosial-iqtisadi və aqrar inkişafın ünvanıdır" mövzusunda dinləmələr olub. Diqqətə çatdırılıb ki, hesabat dövründə Regional məsələlər komitəsi ölkənin müvafiq dövlət qurumları və aidiyyəti beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq şəraitində səmərəli fəaliyyət göstərib. Komitənin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Tarix yazan imza" mövzusunda videokonfrans keçirilib.

Qeyd olunub ki, yaz və növbədənkənar sessiyaları ərzində komitə üzvləri tərəfindən mütəmadi olaraq vətəndaşların qəbulu keçirilib, onların müraciətlərinə baxılıb. Ümumilikdə komitəyə vətəndaşlardan 2102 müraciət daxil olub. 1704 müraciətin icrası təmin edilib, digər müraciətlər baxılması üçün aidiyyəti qurumlara göndərilib. Deputatlar cəmiyyətin həssas qrupları, o cümlədən şəhid ailələri, qazilər, müharibə iştirakçıları və aztəminatlı ailələrlə görüşüb, onların qayğıları ilə maraqlanıblar. Sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində aktual məsələlərlə bağlı çıxış ediblər.

Sonra Regional məsələlər komitəsinin 2022-ci ilin payız sessiyası üçün iş planının layihəsi təqdim edilib. Diqqətə çatdırılıb ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin, bəzi qanunlarda dəyişikliklər edilməsi haqqında sənədlərin müzakirəsi, dinləmələrin keçirilməsi nəzərdə tutulub.

Deputatlar, həmçinin Ermənistanın Azərbaycan sərhədində törətdiyi təxribatlar və digər aktual məsələlərə münasibət bildiriblər. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosi yenidən aqressivliyi qızışdırır, separatizmə dəstək verir. Komitə sədri bildirib ki, bəlkə də Nensi Pelosi atasının yasında o qədər ağlamayıb: "Ora gedir, ağlayır, bura gedir, ağlayır. Onun indi yaşıdlarının dəfn mərasimində ağlayan yaşıdır. Bu qadın Amerikanın prinsipial mövqeyinə zidd çıxış edir, bölgədə gərginliyin artırılmasına səbəb olan çıxışlar edir".

**İsmayıl**

# Rusiya savaşı bitirmək istəyir

## Türkiyənin sülh çağırışlarına indi də Ukrayna yaxın durmur



İsmayıl Qocayev

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya rəhbəri Vladimir Putinin Ukraynadakı müharibəni tezliklə bitirməsinə çalışdığını söyləyib. Ərdoğan Ukraynanın sülhlə bağlı Rusiya ilə eyni yanaşmada olmasının vacibliyindən danışıb:**

"Mən anladım ki, onlar həqiqətən də müharibənin tezliklə bitməsini istəyir. Müharibə kursunun bəlaları çoxdur. İndi məsələn, 200 əsirin qarşılıqlı dəyişdirilməsi barədə razılıq əldə olunub. Bu, çox yaxşı inkişafdır. Bunlar yaxşı xəbərlərdi, amma Ukrayna müharibənin dayandırılmasında Rusiya ilə eyni yanaşmada olmalıdır və biz bu müharibəni bitirmək əzmində olmalıyıq".

Kremlin mətbuat katibi Dmitri Peskov isə deyib ki, Ukraynadakı vəziyyətin siyasi-diplomatik yollarla həlli üçün perspektiv mövcud deyil: "Hazırda belə perspektiv görünmür".

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov "Şərq"ə deyib ki, Türkiyə Prezidenti R.T.Ərdoğan tərəflərə mesaj verir ki, müharibəni dayandırmaq üçün hər tərəf səy göstərməlidir. Analitik qeyd edib ki, Ərdoğanın bu cür çağırış etməsinin səbəbi tərəflərin sülhə meyilli addımlar atmamasıdır:** "Hər iki ölkə öz arqumentlərini ortaya qoyur. Ukrayna tərəfi bildirir ki, işğal altında olan bütün torpaqları geri alanadək müharibənin dayanma ehtimalı yoxdur. Hazırda Kiyev hökumətinin əsas məqsədi Rusiya ilə sərhədə çatmaq, Donetsk və Luqanski, eyni zamanda Krımı rus hərbçilərindən təmizləməkdir. Rusiyada isə iqtisadi vəziyyət ağırlaşır, silah-sursat tükənir. Ona görə də Moskva müharibəni bitirməkdə maraqlı olduğuna işarə edir. Lakin məsələ ondadır ki, Rusiya savaşı saxlamaq niyyətində olsa da, Qərb ölkələri müharibəni dayandırmağı düşünmür. Ukrayna müharibəsi elə həddə çatıb ki, hər dövlət, xüsusən Qərb ölkələri bu məsələdə öz maraqlarını güdürlər. Türkiyənin əsas hədəfi isə sülhü təmin etmək və prosesləri nəzarət altına almaqdır. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Çünki hər iki ölkə - həm Rusiya, həm də Ukrayna özündən ixtiyarsız bir savaşa sürükləniblər. İndiki halda Qərbin də sülhdə, müharibəni dayandırmaqda maraqlı olması şərtdir. O səbəbdən münaqişə davam edir və gərginliyin bir müddət davam edəcəyi ehtimal olunur. Türkiyənin niyyəti ilə yanaşı, müharibə tərəflərinin də iradəsi ortaya qoyulmalıdır. Hələlik isə bu iradə görünmür".



**Sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində keçirilməsi planlaşdırılan Azərbaycan jurnalistlərinin VIII qurultayında 140 üzv təşkilat iştirakını təsdiqləyib.**

Bu barədə "Şərq"ə Mətbuat Şurasından məlumat verilib.

Bildirilib ki, sentyabrın 20-də Azərbaycan jurnalistlərinin VIII qurultayının keçirilməsi üzrə Təşkilat Komitəsinin iclası keçirilib. İclasda Mətbuat Şurasına üzv

# 140 təşkilat iştirak edəcək

## Azərbaycan jurnalistlərinin VIII qurultayı sentyabrın 24-də keçiriləcək

təşkilatlar Şuranın İdarə Heyətinə namizədlərin və qurultayda iştirak edəcək nümayəndələrin verilməsini başa çatdırdıqları qeyd olunub. Sentyabrın 7-dən başlayaraq icra olunmuş bu fəaliyyət çərçivəsində onlara MŞ-nin presscouncil.az saytında yerləşdirilmiş "Azərbaycan jurnalistlərinin VIII qurultayı" bölməsinə daxil olaraq iki anketlə tanışlıq imkanı yaradılıb.

Üzv təşkilatlar anketlərdən birinə qurultayda iştirak edəcək nümayəndələrinin adlarını yazıblar. Qeyd edək ki, Təşkilat Komitəsinin qərarına əsasən, ali məclisdə gündəlik qəzetlər və informasiya agentlikləri 2, həftəlik və aylıq qəzetlər, həmçinin jurnallar, jurnalist təşkilatları, internet informasiya resursları və digər qurumlar 1 nümayəndə ilə təmsil olunacaqlar. Ümumilikdə 140 üzv təşkilat qurultayda iştirakını təsdiqləyib.

TK üzv təşkilatların qurultayda iştirakının təşviqi üçün bütün müvafiq maarifləndirmə işlərini gerçəkləşdirib. Mövcud xüsusda həm məlumatlar paylaşılıb, həm də fərdi danışıqlar aparılıb. Bununla yanaşı, müəyyənləşdirilib ki, bir sıra üzv təşkilatların MŞ ilə əlaqələri itib, uzun illərdir illik üzvlük haqqı ödəmirlər, bəziləri fəaliyyətlərini dayandırıblar. İclasda belə qurumların, əsaslı səbəb olmadan qurultaya qatılmayanların Mətbuat Şurasından uzaqlaşdırılması qərara alınıb. Eyni zamanda onların ali məclisdə iştirak etməmələrinin yetərsay baxımından qiymətləndirilməməsi məqsədəmüvafiq sayılıb.

Təşkilat Komitəsi onu da müəyyənləşdirib ki, üzv təşkilatlar jurnalistlər və ictimaiyyət nümayəndələri daxil olmaqla ümumilikdə 301 şəxsi Şuranın İdarə Heyətinə namizəd kimi göstərərək onların adlarını müvafiq anketə qeyd ediblər. Həmin şəxslərin 152-nin adı anketlərdə bir, 40-nın adı iki, 18-nin adı üç, 6-nın adı dörd, 3-nün adı beş, 5-nin adı altı, 4-nün adı yeddi, 5-nin adı səkkiz, 5-nin adı doqquz dəfə çəkilib. Adları anketlərə 10-20 aralığında yazılmış namizədlərin sayı 18-dir. Namizədlərin verilməsi prosesində anketlərə bir şəxsin adı ən çox 112 dəfə daxil edilib. Eyni təşkilatın namizəd anketinə iki və daha artıq şəxsin adını təkrarən yazması hallarına da rast gəlinib ki, bu zaman yalnız bir səs əsas götürülüb.

Təşkilat Komitəsi Mətbuat Şurasının Nizamnamə tələbini rəhbər tutaraq yekun seçki bülleteninə ən çox səs toplamış 46 namizədin adını daxil edib. Həmin şəxslərin adları TK-nın növbəti məlumat yayımında açıqlanacaq.

*Qeyd edək ki, Azərbaycan jurnalistlərinin VIII qurultayı saat 10:00-da öz işinə başlayacaq.*

# Azərbaycan-Ermənistan sərhədləri şərtidir

## "Delimitasiya-demarkasiya olmadığı müddətdə bu ərazilərin kimə məxsus olduğu da sual altındadır"





**Ermənistan Baş naziri Nikol Paşinyanın "Azərbaycan Ermənistan ərazisinə təcavüz edib" iddiası başqa dairələrdə də gündəmə gətirilir. İrəli sürülən əsas "arqument"lərdən biri belədir ki, hər iki ölkənin hazırkı ərazisi və sərhədləri BMT-yə daxil olanda tanınıb. Ona görə də son döyüşlərin getdiyi ərazilərin "Ermənistana məxsus" olduğu iddia olunmaqdadır.**

Bəs, əslində necədir? Əvvəlcə, xatırladaq ki, Paşinyan parlamentdə çıxışı zamanı deyib ki, "Azərbaycan sonuncu döyüşlərdə Ermənistan ərazisinin daha 10 kvadrat kilometrini tutub". Baş nazir əlavə edib ki, Azərbaycan öz Silahlı Qüvvələrinin de-fakto dayandığı hüdudda ərazi bütövlüyünün tanınmasını tələb etsə, Ermənistan bu şərtləri qəbul etməyəcək. Onun sözlərinə görə, Ermənistanın ayrı-ayrı əraziləri "işğal" edilirsə, Azərbaycanın ərazi bütövlüyü tanına bilməz: "Müasir Ermənistanın əraziləri Ermənistan SSR-nin əraziləridir və biz yalnız ərazi bütövlüyümüzün tanınmasından sonra sülh sazişi imzalamağa hazırıq".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Azərbaycan və Ermənistan 1992-ci ildə BMT-yə daxil olanda Qarabağda müharibə gedirdi və iki ölkə arasındakı sərhəd müəyyən edilməmişdi. Analitik qeyd edib ki, Paşinyan MDB-yə üzv olanda tərəflərin qarşılıqlı şəkildə ərazi bütövlüyünü tanıdığını iddia edir:** "Halbuki, Azərbaycan 1991-ci ildə MDB-yə daxil olmağa razılaşsa da, parlament bunu 1993-cü ildə ratifikasiya edib. Digər yandan iki ölkə arasında sərhədin delimitasiya edilməməsi həmin ərazilərin kimə məxsus olduğunu da şübhələndirir. Fransanın istəyi ilə BMT Təhlükəsizlik Şurasında keçirilən iclasda üzv ölkələrin yekdil mövqeyi sərhədin delimitasiya olunması haqda oldu. Yəni Azərbaycanı Ermənistana "hücum etməkdə" ittiham edən Qərb də reallığı qəbul edir. Naxçıvanın Kərki, o cümlədən, Qazaxın 7 kəndi erməni işğalı altında qalmaqdadır. Paşinyanın özü belə bu kəndlərin hüquqi statusunun mübahisəli olduğunu vurğulayıb. O zaman hansı sərhəddən, yaxud "Ermənistan ərazisindən" bəhs edilə bilər?! SSRİ dövründə otlaq və əkin sahəsi adı altında Ermənistana verilən ərazilərimizin taleyi hələ də sual altındadır. Bu, sərhədin hansı ilin xəritəsinə uyğun müəyyən edilməsi prosesində müəyyənləşəcək. 30 illik işğal dövründə Ermənistan dövlət sərhədini irəli çəkmişdi. Müharibədən sonra bir neçə istiqamətdə bu sərhəd bərpa olunub, lakin proses başa çatmayıb".

**Ekspert bəyan edib ki, Azərbaycan-Ermənistan sərhədi şərtidir və delimitasiya-demarkasiya olmadığı müddətdə bu ərazilərin kimə məxsus olduğu da sual altındadır:** "Bu gün bir-birinə qarşı ərazi iddiası olmayan, lakin sərhədlə bağlı problemlər yaşayan onlarla ölkəni nümunə göstərmək olar. Azərbaycan və Gürcüstan arasında münaqişə yoxdur, ərazi bütövlüyü qarşılıqlı olaraq tanınır. Lakin Keşikçi dağı məbədi ilə bağlı məsələ hələ də açıq qalıb. İki ölkə sərhədin bu istiqamətində delimitasiyanı həyata keçirdikdən sonra parlamentlər ratifikasiya etməli, daha sonra BMT-yə təqdim edilməlidir. Ermənistan və Gürcüstan arasında da sərhədin müəyyən hissələrinin delimitasiyası problemi qalır. Hazırda toqquşmaların yaşandığı Qırğızıstan və Tacikistanın da əsas problemi sərhədin müəyyən edilməməsidir. Bu ölkələr də Azərbaycan və Ermənistan kimi SSRİ dağılanda BMT-yə birgə üzv olublar. Azərbaycan və Ermənistan arasında döyüşlərin kimə məxsus olduğu hələ rəsmi şəkildə müəyyən edilməyən ərazilərdə baş verib. Çox təəssüf ki, bu məsələni izah etmək məcburiyyətini yaradan azərbaycanlılar da var".

**İsmayıl Qocayev**

**"Qərbi Azərbaycana Qayıdış" adlı ictimai təşkilat "Göyçə-Zəngəzur Respublikası"nın yaradıldığını elan edib. Bu barədə bəyanat yayan Birlik qeyd edib ki, "Göyçə-Zəngəzur Respublikası" prezident üsul-idarəli, demokratik respublikadır:**

"Göyçə-Zəngəzur Respublikası"na paytaxt olaraq, Ermənistan Respublikası hökuməti ilə razılaşdırılmaqla, Qafan şəhəri, yaxud Basarkeçər şəhəri nəzərdə tutulur. Respublikanın müvəqqəti yerləşim mərkəzi Bakı, Gəncə şəhərində, yaxud yeni qəsəbə salınması halında deyib ki, "Göyçə-Zəngəzur Respublikası" adlı **təşkilat əqidəsi, məqsədi bilinməyən və qaranlıq mənbələrdən qaynaqlanan bir qrup insan tərəfindən Türkiyədə elan edilib.** Deputatın sözlərinə görə, bu təşkilatı yaradan insanlar bilərəkdən və ya bilməyərəkdən fəaliyyətləri ilə həm Türkiyəyə, həm Azərbaycana, həm də bu iki qardaş dövlət arasında




# "Göyçə-Zəngəzur Respublikası"nın elan edilməsi yanlış addımdır

## Bu iki qardaş ölkənin münasibətlərinə xələl gətirmək istəyən qüvvələrin sifarişidir

Ermənistan sərhədlərinə yaxın Köhnə Başkənd qəsəbəsi olacaq. Respublikanın parlamenti 75 nəfər deputatdan ibarət olmaqla təsis olunur".

"Respublika"nın elanından sonra Türkiyənin paytaxtı Ankara şəhərində Göyçə-Zəngəzur Respublikasının nümayəndəliyinin açılışı olub. Nümayəndəliyin qarşısı Göyçə-Zəngəzur və Türkiyə Respublikasının bayraqları ilə bəzədilib. Bu adda "respublika"nın yaradılması ictimaiyyətdə birmənalı qarşılanmayıb. Demək olar ki, əksəriyyət bu addıma qarşı çıxıb və sərt tənqid edib.

Qərbi Azərbaycan İcması da "Göyçə-Zəngəzur Respublikası" adlı qurum adından müxtəlif paylaşımlar edilməsinə münasibət bildirib. İcma bəyanat yayaraq bildirib ki, "Göyçə-Zəngəzur Respublikası" adlı bir qurumu tanımırlar, bu, özfəaliyyətdir: "Son zamanlar "Göyçə-Zəngəzur Respublikası" adlı qurum adından müxtəlif məsuliyyətsiz paylaşımlar edilir. Bununla bağlı Qərbi Azərbaycan İcmasına çoxsaylı müraciətlərin daxil olduğunu nəzərə alaraq bildiririk ki, Qərbi Azərbaycan İcması "Göyçə-Zəngəzur Respublikası" adlı bir qurumu tanımır, onunla heç bir əlaqəsi yoxdur. Tarixi torpaqlarımızla bağlı belə özfəaliyyət hərəkətlərini yolverilməz və zərərli hesab edir. Bütün media nümayəndələrindən xahiş edirik ki, Qərbi Azərbaycanla bağlı hər hansı bir informasiyanın dəqiqliyinə əmin olmaq üçün Qərbi Azərbaycan İcmasına müraciət etsinlər".

**Millət vəkili Məlahət İbrahimqızı** strateji müttəfiqliyə kölgə salmaq niyyətindədir: "Göyçə-Zəngəzur Respublikası"nın elan edilməsi tamamilə yanlış bir addımdır və bu təşkilatın arxasında sağlam əqidəli qüvvələr ola bilməz. Bu təşkilatın təsis edilməsi Azərbaycan və Türkiyəni sevməyən, eləcə də bu iki qardaş ölkənin münasibətlərinə xələl gətirmək istəyən qüvvələrin sifarişidir. Xüsusilə də indiki vəziyyətdə belə bir qurumun yaradılması, Azərbaycanın beynəlxalq aləmdə qazandığı imic, böyük uğurlar, torpaqlarımızın işğaldan azad edilməsi, əldə edilən möhtəşəm Zəfər fonunda hansısa qüvvələrə işbirliyi adlandırmaq olar".

**Tarixçi Elmar Həsənli vurğulayıb ki, Zəngəzur Azərbaycan Cümhuriyyətinin tarix ərazisi olub. Biz də Cümhuriyyətin varisiyik:** "Tarixdə "Zəngəzur-Göyçə" adlı dövlət olmayıb. Heç muxtar respublika kimi də fəaliyyət göstərməyib. Bu məsələnin fərqini anlamayanlar özlərindən "respublika " qurublar. Özlərini də "prezident" seçirlər. Şair gözəl deyib: "Başın var başsızdan başını qoru". Biri "Göyçə-Zəngəzur" respublikası yaradır. Digəri "İrəvan Türk Cümhuriyyəti". Sabah da başqası "Dərələyəz Cümhuriyyəti" yaradar. Bədbəxtçilik odur ki, yerlibazlıq, tayfa təfəkküründən xilas ola bilmirik. Bu qorxulu "ideya"nızı gənc nəsillərin təfəkkürünə hopdurmayın. Hər yerdə Azərbaycan davasını aparın. Necə ki, Rəsulzadə və silahdaşları bu davanı son damla qanlarına qədər aparıb ortaya Azərbaycan adlı dövlət çıxarıblar".

**"Cümhuriyyət Siyasi Düşüncə Mərkəzi"ni sədri, araşdırmaçı-yazar Ceyhun Nəbi də bildirib ki, insanları coğrafi adlar ilə parçalamaq Kremlin mətbəxində hazırlanmış bir məsələdir:** "Sovetlər zamanından bu zərərli düşüncəni beyinlərə yerləşdirənlər az da olsa öz məqsədlərinə çata bilmişdilər. Göyçəli, naxçıvanlı, gəncəli, bakılı, qazaxlı və digər coğrafi adlar altında toplumu cılızlaşdırmışdılar. Toplumun ortaq gələcəyi naminə mübarizəni əsl hədəfdən yayındıraraq lazımsız işlərlə məşğul olmağa sövq etmişdilər. Bu işin mahiyyətini, əsl məqsədlərini çox az adam dərk edə bilmişdi. Milli dayanıqlığımızı təmin etmək məqsədi ilə bu zərərli düşüncəyə qarşı mübarizəni başlatmağa çalışmışdılar. Yaradılması qeyri-mümkün görünən "Göyçə-Zəngəzur Respublikası" nə deməkdir? Azərbaycanın istiqlaliyyət bayrağının üzərinə "şir" yapışdırılmasının məntiqi izahı özü qədər yanlışdır".

**Politoloq Məhəmməd Əsədullazadə də vurğulayıb ki, Azərbaycanı xanlıq dövrünə qaytarmaq olmaz:** "Hərəsi öz mənfəəti üçün durub "respublika" qururlar. Bütöv Azərbaycan var. Dövlət başçısı İlham Əliyev Qərbi Zəngəzur və Şərqi Zəngəzur deyir. Bütöv Azərbaycan uğrunda mübarizə aparırıq. Prezident İlham Əliyev bu istiqamətdə tarixi ədaləti bərpa edir. Qərbi Zəngəzur, Şərqi Zəngəzura birləşməlidir".

**İsmayıl**



# Pandemiya ilə bağlı Milli Məclisdə dinləmələr keçiriləcək

**Azərbaycanda COVID 19 pandemiyası ilə bağlı Milli Məclis tərəfindən dinləmələr keçiriləcək.**

Bu barədə Milli Məclisin Səhiyyə komitəsinin dünən keçirilən iclasında komitə sədri Əhliman Əmiraslanov deyib.

O bildirib ki, COVID artıq sönməyə başlayıb, ancaq yenə də diqqətli olmaq lazımdır. "Biz arxayınlaşmamalıyıq, ehtiyatı əldən verməməliyik. Hesab edirəm ki, bu məsələ ilə bağlı dinləmələr keçirməyə ehtiyac var. COVID-19 ilə bağlı ölkədə olan vəziyyət və görülən tədbirlərə dair dinləmələrin keçirilməsi faydalı ola bilər", - deyə o qeyd edib.

*Qeyd edək ki, dinləmələrin keçirilməsi komitənin iş planına daxil edilib.*

# Türkiyə-İsrail arasında buzlar əridi

## Vasif Əfəndiyev: ”Türkiyə ilə İsrail arasındakı münasibətlərin istiləşməsi həm Qərb dairələrində, həm Rusiyada, həm də daxildə PKK tərəfdaşlarını çox narahat edir”



**İsrail Türkiyəyə yeni səfir təyin edib. Bu vəzifəyə İrit Lilian təyinat alıb. O, bu təyinata qədər İsrailin Türkiyədəki səfirliyinin müvəqqəti işlər vəkili olub. Xanım səfir bu təyinata qədər İsrailin Türkiyədəki səfirliyinin müvəqqəti işlər vəkili olub. Avstraliyada və Bolqarıstanda səfirlik missiyasını icra edib. Xatırladaq ki, Türkiyə ilə İsrail arasında münasibətlərin pozulmasının təməli 2009-cu il yanvarın 29-da İsveçrənin Davos şəhərində ”Qəzza: Orta Şərqdə sülh” mövzusunda keçirilən konfransda qoyulub.**

O zaman baş nazir vəzifəsini icra edən indiki Prezident Rəcəb Tayyib Ərdoğan İsrailin həmin dövrdəki rəhbəri Şimon Peresi və İsraili fələstinlilərlə münasibətdə obyektiv və ədalətli davranmamaqda qınayıb. Bundan sonra tərəflər arasında diplomatik qalmaqal yaşanıb. 2010-cu il mayın 31-də isə Fələstinin Qəzza zolağına humanitar yardım aparan Türkiyənin ”Mavi mərmərə” gəmisinə İsrail hərbçilərinin basqını isə iki dövlət arasında gərginliyin artmasına səbəb olub. Həmin hadisə nəticəsində Türkiyənin 9 vətəndaşı israilli hərbçilər tərəfindən öldürülüb və iki ölkə arasında vəziyyət böhran həddinə çatıb. Türkiyə Təl-Əvivdəki səfirini, İsrail isə Ankaradakı səfirini geri çağırıb və iki ölkə arasında diplomatik əlaqələr kəsilib. 2016-cı ildə diplomatik əlaqələr yenidən bərpa olunub. Münasibətlərin istiləşməsinin əlaməti olaraq İsrail Prezidenti İsaak Hersoq 2022-ci ilin martında Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla görüşmək üçün Ankaraya səfər edib. Avqustun 17-də isə İsrailin baş naziri Yair Lapidin ofisi İsrail və Türkiyə arasında diplomatik münasibətləri tam bərpa etmək və səfir təyin etmək barədə qərarın qəbul edildiyini açıqlayıb.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə açıqlamasında deyib ki, Türkiyə-İsrail münasibətləri korlansa da, iki ölkə arasında əlaqələr 2018-cu ilə qədər soyuq şəkildə davam etdirilirdi. Partiya təmsilçisinin sözlərinə görə, hər iki ölkə anlayırdı ki, Türkiyə-İsrail münasibətləri regionun stabillik qarantıdır:** ”Buna baxmayaraq 2018-ci ildə Yerusəlimdə (Qüds) ABŞ səfirliyinin açılmasına etiraz edən 60 fələstinli döyüşçü Qəzza sərhədində İsrail təhlükəsizlik qüvvələri tərəfindən zərərsizləşdirildi. Bundan sonra gərginlik artdı və səfirlər qarşılıqlı geri çağırıldı. 4 ildən sonra diplomatik əlaqələrin bərpa edilməsi gərginliyin arxada qalması anlamına gəlir. Ədalət naminə etiraf etmək lazımdır ki, Fələstin məsələsində haqlı tərəf İsrail dövlətidir. Mövzuya tarixi nöqteyi-nəzərdən yanaşsaq, israillilərin bölgədə dövlət haqqı tanınmalıdır. Fələstin isə BMT-nin onlara verdiyi haqqı ayaqlar altına ataraq İsrailin dövlət haqqını tanımaq istəmir. Bölgədə real vəziyyət bu gün baş verən siyasi prosesləri tamamlayır. İsrail bugünkü əraziləri ilə birlikdə bir neçə əhəmiyyətsiz dövlətləri çıxmaq şərti ilə tanınıb. İsrail dünya elminə və mədəniyyətinə saysız-hesabsız görkəmli şəxsiyyətlər bəxş etmiş ölkədir. İsrailin varlığı bəşəriyyət üçün lazımlı və faydalıdır. Fələstinlilər isə digər ərəb ölkələri kimi zəhmət çəkmədən yaşamaq arzusundadır”.

**V.Əfəndiyevə görə, İranın təsir dairəsində olan Fələstin bölgədə yəhudi xalqının həyatı üçün daim təhlükə yaratmaqdadır:** ”Fələstinə atılan raketlər isə məlumdur ki, cavab atəşləridir. Bu hadisə Ərdoğan hökuməti tərəfindən ənənəvi olaraq qınanacaq, lakin münasibətlərin geriləməsi baş verməyəcək. Türkiyə ilə İsrail arasındakı münasibətlərin istiləşməsi həm Qərb dairələrində, həm Rusiyada, həm də daxildə PKK tərəfdaşlarını çox narahat edir. İran isə Türkiyənin gündən-günə artan hərbi qüdrətinə qısqanc yanaşır. İsraildən bəhs etmişkən Azərbaycanın böyük dostu, yəhudi əsilli Arye Qutun uzun sürən xəstəlikdən həyatını itirməsi bizi çox məyus etdi. Dostluq körpüsü yaradan insan idi, Tanrı məkanını uca etsin!”.

**İsmayıl Qocayev**



# "Pelosi Azərbaycan - ABŞ münasibətlərinin indikatoru deyil"

## Aqşin Kərimov: “Azərbaycan ABŞ üçün İrana açılan regional fürsətlər pəncərəsində həlledici rola malikdir”

**Sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan ordusunun böyük miqyaslı təxribat cəhdinin qarşısı alınandan sonra Baş naziri Nikol Paşinyan dünya liderlərinə zəng edərək, onlardan kömək istədi. Doğrudur, heç bir müsbət cavab ala bilmədi. Amma təcavüzkarın yanında və arxasında duran məkrli, şər qüvvələr də olur həmişə. ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi kimi.**

Bu ağbirçək ötən günlərdə Ermənistana səfər edib. Səfər zamanı amerikalı spiker münaqişədə Azərbaycanı günahlandıraraq qondarma soyqırımı abidəsinin qarşısında ”timsah göz yaşları” töküb. Pelosinin bu fəaliyyəti öz siyasi ambisiyasına və lobbi maraqlarına xidmət edir. O, bu hərəkətlərlə regionda gərginlik yaradır. Bununla da ABŞ-ın Azərbaycan ictimai rəyində onsuz da aşağı olan nüfuzunu daha da zəiflədir.

**Məsələyə münasibət bildirən siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Nensi Pelosi Azərbaycan-ABŞ münasibətlərinin gərginləşməsinin və ya inkişafının indikatoru ola bilməz:** ”Burada 3 vacib məqam var. Birincisi, Amerika Azərbaycanla müxtəlif sahələrdə, anti-terrordan tutmuş, enerji layihələrinədək bir sıra sahələrdə yüksək səviyyədə əməkdaşlıq edir. İkincisi, Rusiyanın Ukraynaya hərbi təcavüzü Avropanın enerji bazarlarında Azərbaycanın rolunu artırır. Avropanın təhlükəsizlik arxitekturasına önəm verən rəsmi Vaşinqton Azərbaycan qazının Rusiya qazına alternativ yaratmaq imkanlarını nəzərdən keçirir. Üçüncüsü isə Azərbaycan ABŞ üçün İrana açılan regional fürsətlər pəncərəsində həlledici rola malikdir. Buna görə də ABŞ-Azərbaycan münasibətlərinin təməllərinə, Pelosi kimi daxili auditoriyada erməni icmasının ürəyinə su səpmək üçün addım atan şəxs zərbə vura bilməz”.

**"Buna görə də ABŞ-Azərbaycan münasibətlərinin təməllərinə, Pelosi kimi daxili auditoriyada erməni icmasının ürəyinə su səpmək üçün addım atanlar heç bir zərbə vura bilməz"**

**Analitik qeyd edib ki, Amerikada formalaşan Cənubi Qafqaz strategiyasının Azərbaycan üçün mənfi cəhətləri mümkündür, çünki Vaşinqton əsas hədəf kimi Rusiyanı ”aradan götürmək” istəyir:** ”Azərbaycan rəqabəti faydaya çevirmək bacarıqlarını inkişaf etdirməlidir və ən həlledici məqamlarda əvvəlki illərdəki balans siyasətinə sadiq qalmalıdır. Balans siyasəti təhlükəsizlik qayğılarından irəli gələn öhdəliklərin icrasını da sürətləndirməlidir. Azərbaycan diplomatiya ilə yanaşı hərbi gücünü inkişaf etdirib, tərəfləri təhdidlər buludunu dağıtmaq potensialında olduğuna inandırmalıdır. Türkiyə bu istiqamətdə Azərbaycana dəstəkdir və regionda qılıncını çarpazlayan güclər bu amili nəzərə alırlar”.

**Nihat Müzəffər**



# Putin Qərbə daha bir sürpriz etdi

## Rusiya ilə Şimali Kipr arasında birbaşa təyyarə reysləri açılacaq

**Şimali Kipr Türk Respublikası və Rusiya arasında birbaşa təyyarə reysləri gerçəkləşdiriləcək.**

”CNN Türk”ün məlumatına görə, ilk uçuşun Ercan hava limanının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılış günündə - noyabrın 15-də həyata keçiriləcəyi gözlənilir.

Müsəlman inquş olan Zyazikovun təyinatı Kipr mətbuatında ”Putinin Ərdoğana hədiyyəsi” kimi gündəmə gəlib.

**Politoloq Tural İrfan isə ”Şərq”ə açıqlamasında deyib ki, proseslərin bu cür davamı Türkiyə-Rusiya yaxınlaşmasının nəticəsi olaraq dəyərləndirilir:** ”Xatırladım ki, bu yaxınlarda Rusiya Prezidenti Vladimir Putinin Şimali Kiprə təyin etdiyi səfir də türk əsillidir. Qərbin istər Türkiyəyə, istərsə də Ukrayna məsələsində Rusiyaya qarşı kəskin çıxışları Türkiyə və Rusiyanı maraqlar baxımından yaxınlaşdırdı. Nensinin Ermənistandakı çıxışı, artıq Rusiyadan çox Qərbi eşidən Ermənistanın Rusiya-Türkiyə-Azərbaycan maraqlarına zidd addımları Putinə belə bir addım atmaq üçün əsas verir. Təzyiqlərə qarşı o da öz təsirlərindən bu cür istifadə edir. Ukrayna məsələsində Türkiyənin sabiq mövqeyi həm Ukrayna ilə münasibətləri qorudu, həm də Rusiya ilə münasibətlərə nəinki xələl gətirdi, əksinə, inkişaf etdirdi. Rusiya bu addımı atmaqla Türkiyəyə dəstəkdən çox Amerika və Avropa maraqlarına qarşı təsir göstərmək istəyir. Türkiyə və Rusiyanın ortaq maraqları var və bu, onları sıx yaxınlığa məcbur edir və Ermənistan-Azərbaycan arasındakı məsələlərin həllində də bu yaxınlaşma böyük rol oynayacaq. Təsadüfi deyil ki, səfirin təyinatını ”Putinin Ərdoğana hədiyyəsi” adlandırırlar. Rusiyaya qarşı Ukrayna mövzusunda təzyiqlər dərinləşdikcə, o, Türkiyəyə daha da yaxınlaşacaq və hətta Şimali Kipri rəsmən tanıya da bilər. Hər bir halda Rusiya-Türkiyə münasibətlərinin normal olması həm Türkiyənin xeyrinədir, həm də Azərbaycanın. Bu uçuşun gerçəkləşməsini və səfir təyin etməsini Putinin Qərbə sürprizi adlandırmaq olar”.

**Şəymən**

# Heyif səndən, Azərbaycan sevdalısı!

## Arye Qutun vaxtsız vəfatı ölkə ictimaiyyətini dərindən kədərləndirdi



**Azərbaycan sevdalısı, xalqımızın dostu, ”İsraildə Azərbaycan Evi” qeyri-hökumət təşkilatının icraçı direktoru, jurnalist, israilli ictimai xadim Arye Qut vəfat edib. Uzun müddətdir xəstəlikdən əziyyət çəkən Arye Qut İsraildə dünyasını dəyişib. Arye Qut 2 iyun 1975-ci ildə Bakı şəhərində anadan olub. Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsini fərqlənmə diplomu ilə bitirib. Sonra müəllimlik təcrübəsi keçmək məqsədi ilə İtaliyanın Genova Universitetinə göndərilib. Beynəlxalq münasibətlər sahəsində magistr elmi dərəcəsi olan Arye Qut Azərbaycan, rus, ingilis, ivrit, türk və alman dillərində sərbəst danışıb.**

2000-ci ildə İsrailə köçüb. 2007-2009-ci illərdə Türkiyənin İsraildəki səfiri Namiq Tanın siyasi müşaviri vəzifəsində çalışıb. Bununla yanaşı, o, İsrail-Turkiyə və İsrail-Azərbaycan münasibətləri sahəsində İsraildə aparıcı mütəxəssislərdən biri kimi tanınıb. İsrailin 9 və 10 televiziya kanallarında müxtəlif dillərdə daimi siyasi şərhçi kimi çıxışlar edib. Türkiyə-İsrail münasibətlərinə, İsrail və Azərbaycan strateji tərəfdaşlığına, Cənubi Qafqazda geosiyasi vəziyyətə, Ermənistan-Azərbaycan münaqişəsinə aid 700-dən artıq analitik məqalələrin müəllifi idi. Arye Qut həm İsrail, həm Azərbaycan mətbuatı ilə fəal şəkildə əməkdaşlıq edirdi. İsraildə Azərbaycan diasporunun fəal nümayəndələrindən biri kimi aktiv çalışırdı. 2016-cı ildən isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri kimi fəaliyyət göstərirdi.

*Əsl Azərbaycan dostunun vaxtsız ölümü ölkə ictimaiyyətini də dərindən kədərləndirib. Sosial şəbəkələrdə Arye Qutun fotosunu paylaşan tanınmış şəxslər mərhumla bağlı öz təəssüratlarını, düşüncələrini və xatirələrini bölüşüblər.*

**Mətbuat Şurasının sədri Əflatun Amaşov Arye Qutun dünyasını dəyişməsi xəbərindən çox sarsıldığını deyib:** ”Azərbaycan sevdalısı, əməli fəaliyyəti ilə ölkəmiz üçün çalışan bir şəxsin yoxluğu böyük itkidir. Bu itkinin yerinin doldurulması çox çətin olacaq. Bəlkə də heç olmayacaq. İsrail və Azərbaycan strateji tərəfdaşlığına, Cənubi Qafqazda geosiyasi vəziyyətə, Azərbaycan-Ermənistan münaqişəsində Azərbaycanın haqlı mövqeyinin müdafiəsinə həsr olunmuş yüzlərlə analitik məzmunlu məqalələr, saysız-hesabsız çıxışlar, şərhlər. Arye Qutu xarakterizə edərkən ilk növbədə gözlərimiz önündə canlanan bunlardır. Amma onun gördüyü işlərin miqyası heç də bunlarla məhdudlaşmayıb.

Arye Qut Azərbaycan naminə gördüyü işlərə böyük ürək qoyurdu. O ürəyin bir daha döyünməyəcəyini düşünmək ağırdır. Mərhumun doğmalarına, əzizlərinə, həmkarlarına və dostlarına dərin hüznlə başsağlığı verir, kədərlərini və üzüntülərini bölüşürəm. Allah rəhmət eləsin!”.

**Millət vəkili Fazil Mustafa fikirlərini bu cür ifadə edib:** ”Arye Qut Azərbaycan üçün sevgisini fəda edən bir yəhudi balasıydı. Hər məkanda dövlətimizin və millətimizin effektli təbliğatını aparırdı. Ruhu şad olsun. Unutmayacağıq!”.

**Diaspora fəalı Elnur Elturk da xəbəri hüznlə qarşılayanlardan olub:** ”Arye Qut gözəl insan idi. Onunla tanışlığımız 2007-ci ildən başlayırdı. Dünya Azərbaycanlıları Konqresinin ofisində tanış olmuşduq. Azərbaycan diasporunun güclənməsi, Azərbaycan həqiqətlərinin təbliğatı, erməni yalanlarının ifşasında xüsusu rol oynayırdı. Xarici mətbuatda, xüsusilə ”The Jerusalem Post” qəzetinin siyasi şərhçisi kimi Qarabağla bağlı analitik yazılarla çıxış edirdi. Azərbaycan-İsrail əlaqələrinin güclənməsinə çalışırdı. Türkiyə-İsrail münasibətləri gərginləşən vaxtlarda da vəziyyətin normallaşması üçün əlindən gələni edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xidmətlərinə görə onu ”Dostluq” ordeni ilə təltif etmişdi. Ruhun şad olsun, əziz qardaş!”.

**Tanınmış telejurnalist Səadət Məmmədova qeyd edib ki, 2007-ci ildən bəri dostluq etdiyi Arye Qutu hər zaman gülərüz, Azərbaycansevər kimi xatırlayacaq:** ”Sənin Azərbaycana bağlılığın sözdə deyildi, əməldə idi, ürəkdən gəlirdi. Mən bunun illərlə şahidi olmuşam. Həm diaspor sahəsində, həm də TV-də çalışarkən... Allah sənə son mənzilində rahatlıq bəxş etsin. Nur içində uyu!”.

**”YeniÇağ”Media Holdinqin rəhbəri Aqil Ələsgər də bildirib ki, Arye Qut böyük azərbaycanlı, ölkəmizin İsraildəki ən böyük qalası idi:** ”Uzun zamandan bəri xəstəydi. O, xəstə canı ilə bir an olsun Azərbaycan davası yolunda çalışmaqdan yorulmadı. Ən son təyyarədə bir yerdə gəlmişdik və yerdə vaxt tapmadığımızdan göydə xeyli söhbətləşmişdik. Xəyalları, gerçəkləşməsi üçün səhhətini heçə saydığı layihələri vardı.. Səmimi insan, dəyərli dost, məkanın cənnət olsun!”.

**Araşdırmaçı-jurnalist Anar Turan da Arye Qutun qəfil ölümündən çox təəssüfləndiyini söyləyib:** ”Əziz Arye, sən belə gənc yaşda gedəcək insan deyildin. Heyif səndən. Azərbaycanı, azərbaycanlıları çox sevən, hər bir uğurumuza ürəkdən sevinən, İsraildə Azərbaycan adını bütün fəaliyyəti boyu əzmlə, fəxarətlə ucalara qaldıran, erməni lobbisinin təhdidlərinə boyun əyməyən vətənpərvər şəxsiyyət, gözəl dostumuz, dəyərli müsahibimiz, həmsöhbətimiz. Allah sənə rəhmət eləsin”.

**Jurnalist Tehran Orucoğlu da bir xatirəsini bölüşüb:** ”Çox təəssüf Arye əmi, çox təəssüf... Bir müddət əvvəl çox uzun-uzun danışdıq. Həyat hekayəsi bir dastandır. Təsəvvür edin, illər öncə həkim deyib ki, 2-3 ay sonra öləcəksən. Sual verdim ki, ”həkim dedikləri sizə necə təsir etdi?”. ”Tehran, mən hələ ölmək istəmirdim, çünki missiyamı tamamlamamışdım. Gördüyün kimi, illər keçir, yaşayıram”. Nurlar içərisində yat. Səni unutmayacam..”.

**Jurnalist Elşad Miraləm vurğulayıb ki, Arye Qut Azərbaycanın dünyadan, dünyanın Azərbaycandan nə istədiyini bilən azsaylı peşəkarlardan biri idi:** ”O, yaxşı insan, həqiqi vətənpərvər və etibarlı dost olmaq kimi ağır yükləri eyni anda daşımağı bacaran, Vətəndən uzaqda öz xalqına xidmət etməyin nümunəsini yaradan dəyərli bir şəxsiyyət kimi yaddaşımızda qalacaq. Allah rəhmət eləsin!”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**



# İslam mədəniyyətində birgəyaşayış təcrübəsinin öyrənilməsi önəmlidir

## Natiqlər beynəlxalq simpoziumda vurğulayıblar ki, bütün dinlər terrora, münaqişəyə yox, sülhə, qardaşlığa çağırır

**Dünən Bakıda "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpozium öz işinə başlayıb. Simpozium Azərbaycan İlahiyyat İnstitutu (AİI), Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF), Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzi tərəfindən birgə təşkil edilib. Tədbirin əvvəlində torpaqlarımızın qorunması uğrunda şəhid olanların ruhları bir dəqiqəlik sükutla yad edilib və İlahiyyat İnstitutunun tələbəsi Əmrah Eminovun təqdimatında Quran tilavəti səsləndirilib.**

*İnstitutun rektoru, dosent Aqil Şirinov müasir dünyada birgəyaşayış çərçivəsində ortaya çıxan böyük problemlərin əsas amillərindən birinin milli, irqi və dini müstəvidə artan ayrı-seçkilik olduğunu nəzərə çatdırıb.* Bildirib ki, etiqadi və məzhəb zəminində baş verən ayrı-seçkilik və münaqişələr elm və irfandan uzaq olan bəzi dini qrupları müsəlman dünyasına yönəldilmiş planların könüllü iştirakçılarına çevirir: "Bütün bunlar bizi islam Şərqində və mədəniyyətində birgəyaşayış ənənəsini, tarixi təcrübələri, Həzrət Məhəmmədin həyat fəlsəfəsinə bağlı prinsipləri yenidən gözdən keçirib təhlil etməyə, islam mədəniyyətinin şifrələrini və bu mədəniyyətin müqəddəs mətnlərini doğru oxumağa sövq edir". Simpoziumun islam mədəniyyətində birgəyaşayış təcrübəsinin tədqiqinə öz töhfəsini verəcəyindən əmin olduğunu vurğulayan AİI rektoru tədbirin işinə uğurlar arzulayıb.

**Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov islamın əsas qaynaqlarından nümunələr gətirərək birgəyaşayış məsələsinə toxunub:** "Sonrakı dövrlərdə, xüsusən də son bir neçə əsrdə Qərb mədəniyyətinin hakim mədəniyyətə çevrilməsi, islam mədəniyyətinin bu böyük ənənə və təcrübəsinə kölgə salıb. Əvəzində dinimizin və mədəniyyətimizin adı terror, ekstremizm, radikalizm və s. qavramlarla birgə anılmağa başlanılıb. Bu böyük mirası dünya ictimaiyyətinə təqdim və təbliğ etmədə çox aktiv olmalıyıq. İslam mədəniyyətinin bir parçası olan Azərbaycan da keçmişdən bu günə çox zəngin birgəyaşayış ənənələrinə sahibdir və dövlətimiz bu sahəyə bu gün də böyük diqqət göstərir. Etnik, mədəni, dini, məzhəb və s. cəhətdən müxtəlifliyin olduğu ölkəmizdəki birgəyaşayış mühiti bəşəriyyətin birgəyaşayışına öz töhfəsini verir. Bu mühit sadəcə qanunlara deyil, həm də kökləri dərində olan böyük mirasa söykənir".

**Kırıkkale Universiteti islam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten qeyd edib ki, islam mədəni mühitinin birgəyaşayışla bağlı bir çox dəyərə və zəngin tarixi təcrübələrə sahib olduğunun şahidləriyik. O, qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayıb:** "Bu meyl dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır". M.Erten "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda keçirilən beynəlxalq simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb, gələn il Türkiyədə keçirilməsini təklif edib.

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev isə qeyd edib ki, dinimiz təkcə müsəlmanlara qayğı göstərməyi buyurmur:** "Yanında köməyə ehtiyacı olan digər dinə mənsub şəxslər, hətta dinsiz şəxslər belə varsa, onlara yardım etməyi əmr edir. Birgəyaşayış, dinlərarası qardaşlıq, dostluq məhz bu əməllər üzərində qurulur, formalaşır. Əl-Bəqərə surəsində qeyd edilir ki, dində məcburiyyət yoxdur. Yəni ayinləri kiməsə məcburi surətdə qəbul etdirmək olmaz. İslamda həmçinin digər dinlərə mənsub şəxslərin ibadət yerlərinə də hörmətlə yanaşmaq buyurulur. Belə dəyərlər təkcə insanlar arasında deyil, eyni zamanda dövlətlərarası münasibətlərin də tənzimlənməsində böyük rol oynayır".

Vurğulanıb ki, simpoziumun keçirilməsində məqsəd - islam mədəniyyəti kontekstində fərqli din nümayəndələrinin birgəyaşayışı ilə bağlı vəziyyəti müzakirə etməkdir. Həmçinin, müsəlman cəmiyyətləri arasında bu istiqamətdə mövcud təcrübələrdən yararlanmaq, müvafiq sahə üzrə mütəxəssis və araşdırmaçıların verdikləri töhfələri üzə çıxarmaqdır. Həmin istiqamətdə elmi, siyasi, ictimai və fərdi tədqiqatların artırılmasına zəmin yaratmaqdır.

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, müasir dünyamızın çağırışları fonunda birgəyaşayış təcrübəsinin öyrənilməsi, bölüşdürülməsi olduqca önəmlidir.** O bildirib ki, bu gün bir sıra qlobal problemlər var. Bunlar arasında nüvə müharibəsi təhlükəsi, demoqrafiya, iqlim dəyişikliyi, terrorizm və s. qeyd etmək olar: "Bu problemlər həllini tapmasa dünyamız böyük təhlükə ilə üzləşə bilər. Dünyada bu gün 160-a qədər münaqişə var. Bunlar 3 yerə bölünür: Tam sükunətdə olan, hər zaman alovlana bilən və hazırda davam edən münaqişələr. Hazırda dünya əhalisinin sayı 8 milyarda çatıb, halbuki, 200 il öncə 1 milyard insan var idi. Əhalinin çoxluğu bir sıra problemləri də özü ilə gətirir. Milyonlarla insan aclıq və susuzluqdan əziyyət çəkirlər. Filosoflar qeyd edir ki, həqiqətə gedən yol təcrübədədir. Birgəyaşayış təcrübəsi dedikdə təkcə islam coğrafiyasında olan birgəyaşayışı deyil, digər dinlərarası birgəyaşayışı da nəzərdə tuturuq. Bu gün dünya əhalisinin 25 faizi və planetimizin torpaq sahəsinin 19 faizi islam coğrafiyasının payına düşür. Hazırda 120 ölkədə islam ümməti var. İslam dini, islam mədəniyyəti dünyadakı proseslərə böyük təsir edir. Azərbaycan da islam dininin geniş yayıldığı ölkələrdəndir. Ölkəmizdə digər dinlərə münasibəti nəzərə alsaq, birgəyaşayışın bütün dünyaya örnək ola biləcəyini vurğulamaq olar".

*Mübariz Qurbanlı qeyd edib ki, islamı bu gün terrora bağlamağa çalışırlar: "Bu istiqamətdə müəyyən təşəbbüslər var.* Lakin ekstremizmlə dini birgə tutmaq olmaz. Dünyada bütün dinlər terrora, münaqişəyə yox, sülhə, qardaşlığa çağırır".

**Azərbaycandakı tolerantlıq mühiti ilə bağlı danışan millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov qeyd edib ki, birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması üçün əvəzedilməz dəyərdir. Deputat bəyan edib ki, birgəyaşayış demokratik və multikultural cəmiyyətimizin əsas dəyərlərindən biri kimi, ölkəmiz üçün də əhəmiyyəti gedərək artan məsələlərdəndir:** "Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın dinimizə, milli-mənəvi dəyərlərimizə diqqət və qayğısı hər zaman yüksək olub. Biz Azərbaycan Prezidentinin, Birinci vitse-prezidentin davamlı olaraq məscidləri ziyarət etdiklərinin şahidi oluruq. Bu, özünü işğaldan azad olunmuş ərazilərdə də açıq şəkildə göstərir. Ağdamda, Şuşada, Zəngilanda bilavasitə cənab Prezidentin və Mehriban xanımın diqqət və qayğısı ilə yeni məscidlər, dini ibadət ocaqları inşa, təmir və bərpa olunur. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Qarabağa və Şərqi Zəngəzura bütün səfərlərində məscidlərə gedərək orada dualar edirlər. Hətta özləri ilə bərabər apardıqları Quranı da məscidlərə hədiyyə edirlər. Eyni zamanda bu gün Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərdə məscidlərin tikintisi ilə bağlı böyük işlər həyata keçirilir, Şuşa və Zəngilan məscidləri Fond tərəfindən təmir və bərpa olunur. Eyni zamanda bu işlər Şuşada və digər ərazilərdə gedir. Həmçinin, Daşaltıda, Hadrutda, Suqovuşanda bilavasitə Prezident İlham Əliyevin rəhbərliyi, diqqət və qayğısı ilə yeni məscidlər inşa olunur. Təkcə azad olunmuş bölgələrdə yox, Bakıda, Şamaxıda bu işlərin yüksək səviyyədə həyata keçirildiyini görürük. Son illər Bakıda Bibiheybət, Təzə Pir, Şamaxı Cümə məscidlərində də yüksək abadlıq, quruculuq işləri həyata keçirilib. Bu məscidlər bu gün Azərbaycana gələn bütün qonaqları heyran edir. Bu yerlər Azərbaycanda islam dünyasının gözəl, füsunkar ibadət yerlərindən birinə çevrilib və elə təqdim edilir".

*Parlament üzvü qeyd edib ki, Prezident İlham Əliyevin din sahəsinə böyük diqqət və qayğısının göstəricisi Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasıdır:* "Bu İnstitut bölgənin aparıcı ali dini təhsil müəssisələrindən birinə çevrilib. Onu da qeyd edək ki, Azərbaycanda təkcə müsəlman dini abidələrinə deyil, digər dinlərin də dini ibadət yerlərinə yüksək diqqət və qayğı göstərilir. Qeyd olunanlara əsasən tam əminliklə söyləyə bilərik ki, bu gün ölkəmizdə milli-mənəvi dəyərlərimizə yüksək diqqət və qayğı var. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın əsas tolerantlıq və mutlikulturalizm mərkəzlərindən birinə çevrilib".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qazaxıstanda Nazarbayev erası bitib

## Nur-Sultan yenidən Astana oldu



***İlqar Vəlizadə: "Tokayev əlbəttə ki, əhalinin simpatiyasını qazanmaq niyyəti güdür"***

**"Uzun müddətdir ki, Qazaxıstan əhalisi, ələlxüsus da şəhər ictimaiyyəti paytaxt adının dəyişdirilməsi ilə bağlı məsələ qaldırır".**

*Bu sözləri "Şərq"ə politoloq İlqar Vəlizadə bildirib. Onun sözlərinə görə, şəhərin adı Astana əvəzinə Nur-Sultan olsa da, yerli sakinlər özlərini astanaçılar adlandırırdılar:* "Yəni cəmiyyətdə bu ad daha çox kök salıb. Vətəndaşların böyük hissəsi məişətdə, aralarında şəhəri məhz Astana adı ilə dilə gətirirdilər. Qazaxıstanda son hadisələr, siyasi olaylar Nur-Sultan Nazarbayevin şəxsi pərəstiş obrazını bir qədər azaldıb. Digər tərəfdən də daxili siyasi dəst-xətt dəyişilib.

Bu səbəbdən Prezident Qasım-Jomart Tokayev ictimaiyyətin istəklərini nəzərə alaraq, belə bir qərarla çıxış edib. O, atdığı addımla xalqın yanında olduğunu ifadə edir. Əhalinin fikirləri Qazaxıstan prezidenti üçün önəmlidir. Həmçinin ölkə vətəndaşlarının arzusunu yerinə yetirməyə hər zaman hazırdır. Bu, vacib bir mesajdır. Çünki bilirik ki, Qazaxıstan parlament seçkiləri ərəfəsindədir. Gələn il səsvermə yolu ilə prezident seçiləcək. Tokayev əlbəttə ki, əhalinin simpatiyasını qazanmaq niyyəti güdür. Paytaxt adının yenidən dəyişdirilməsi haqqında imzaladığı qanununu da ona rəğbət bəslənilməsi məqsədi ilə əlaqələndirmək olar".

*Qeyd edək ki, Qazaxıstanın paytaxtı rəsmi olaraq, yenidən Astanadır. Bu barədə ölkə Prezidenti Qasım-Jomart Tokayev qanun imzalayıb.*

**Sücayət Mehti**

# Dərd bir deyil, iki deyil...

## Bağçaların, məktəblərin açılması özü ilə problemlər gətirdi



***Tədris ilinin başlanmasıyla həm körpələr, həm də məktəbyaşlı uşaqlar arasında virus infeksiyaları geniş yayılıb***

**Azyaşlılar arasında xəstələnmə halları artır. İlin aktiv dövrü - tədris ilinin başlanğıcı vəziyyəti daha da ağırlaşdırır. Məzuniyyət mərhələsinin bitməsiylə işə qayıdan valideynlər uşaqlarını bağçaya yönləndirir, məktəbyaşlılar da dərsə gedir, uşaqlar arasında təmasların artması virus mənşəli xəstəliklərin yayılmasını şərtləndirir. Valideynlər bir ağızdan "uşaq evdə olanda bu qədər xəstələnmir. Elə ki bağça, məktəb açıldı, tez-tez xəstələnirlər. Analara nə qədər deyəsən ki, xəstə uşağı bağçaya, məktəbə göndərmə!" deyib narazılıq edir, amma əksəriyyət də eyni davranışı təkrarlayır. Çünki uşağı tapşıracaqları başqa bir ünvan yoxdur. İşləməksə, vacibdir. Uşaqların tez-tez xəstələnməsinin səbəbkarı bağça və məktəbdirmi?**

Qeyd edək ki, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Əkbər Quliyev uşaqlar arasında geniş yayılan mövsümi infeksiyalar və əlamətlərini açıqlayıb. Nazirlikdən verilən xəbərə görə, ekspert bildirib ki, hazırkı mövsümə uyğun olan infeksiyalara rotavirus, adenovirus və influenza (qrip) virusu aiddir. Bu xəstəliklərin hər birinin özünə xas xüsusiyyətləri var: "Rotavirus infeksiyası əsasən fekal-oral yolla ötürülür və mədə-bağırsaq sisteminin infeksion xəstəliyidir. Bu zaman xəstənin hərarət, ürəkbulanma, qusma, qarın ağrısı, ishal, halsızlıq, iştahsızlıq kimi şikayətləri olur. Adenovirus isə hava-damcı və kontakt yolu ilə keçir. Mədə-bağırsaq sisteminin və üst tənəffüs yollarının infeksion xəstəliyidir. Bu zaman isə şikayətlər hər nə qədər rotavirusa bənzəsə də, xüsusi məqamlar var ki, bu xəstəlikləri bir-birindən fərqləndirmək lazımdır. Adenovirus infeksiyası zamanı ürəkbulanma, qusma, qarın ağrısı, ishal ilə yanaşı yüksək hərarət, burun axıntısı, öskürək, gözlərdə qızarıqlıq (konyuktivit) kimi əlamətlər müşahidə edilir. İnfluenza (qrip) virusu isə soyuq havalara daha davamlı virus olduğu üçün hər il payız-qış aylarında qrip xəstəliyi ilə daha sıx qarşılaşırıq. İnfluenza virusu da hava-damcı yolu ilə keçir və üst tənəffüs yollarının xəstəliyidir. Anidən başlayan yüksək hərarət (38°S-39°S), başağrısı, burun axıntısı, öskürək, boğaz ağrısı, gözlərdə sulanma, qızarıqlıq, sümük və əzələ ağrıları kimi əlamətlərlə seyr edir. Xəstəliyin gedişatı əsasən yüngül olur. Xüsusi risk qrupunda olan uşaqlarda və 1 yaşdan balaca uşaqlarda xəstəlik müddəti müəyyən qədər kəskinləşmə və ağırlaşmalar görülə bilər". Ekspert deyib ki, infeksiyaların hər üçündə yanaşma simptomatikdir: "Müalicə yalnız əlamətlərə uyğun təyin olunur. Rotavirus və adenovirusun müalicəsi zamanı əsas məqsəd dispeptik əlamətləri aradan qaldırmaq və hərarəti salmaqdır. Valideynlərə tövsiyəmiz odur ki, belə hallarda qızdırmanı salan dərmanlardan istifadə etsinlər və bol maye qəbulunu təmin etsinlər. Əgər uşaqda qızdırmasalıcı dərmanlara tabe olmayan temperatur, maye itkisinə bağlı olaraq halsızlıq, yorğunluq, iştahsızlıq varsa, qusma və ishalın sayı gün ərzində 5-6 dəfədən çox olarsa, mütləq həkimə müraciət edilməlidir. İnfluenza (qrip) ilə yoluxmadan 24-48 saat sonra xəstəliyin ilk əlamətləri təzahür etməyə başlayır. Xəstəlik 7-10 gün davam edir. Temperaturlu müddət 3-5 gün davam edə bilər. Öskürək xəstəliyin irəliləyən dövrlərində başlaya bilər və 1-2 həftə davam edir. Qrip xəstəliyi zamanı hərarəti salmaq, burun tutqunluğunu aradan qaldırmaq, bol maye qəbulu və istirahəti təmin etmək vacib şərtlərdəndir. Bundan əlavə, valideynlər həkimlə mütəmadi əlaqə saxlamalıdırlar. Bilməlisiniz ki, qripin başlanğıcında fəsadların inkişafının qarşısını almaq ümidi ilə antibiotik qəbul etmək yanlış fikirdir. Uşaqlarda yoluxucu xəstəliklərin ağırlaşmalarının qarşısını almaq üçün istifadə olunan hər hansı bir antibiotik yalnız həkim tərəfindən təyin olduğu qayda ilə qəbul edilə bilər". Həkim əlavə edib ki, immunitetin yaranması üçün peyvənd nə qədər önəmlidirsə, qidalanmanın da yetərli və balanslı olması çox önəmlidir.

**Mövcud durumla bağlı fikirlərini "Şərq"lə bölüşən təcili tibbi yardım stansiyasının həkim-terapevti Şahvələd Məmmədov tədris ilinin başlanmasıyla həm körpələr, həm də məktəbyaşlı uşaqlar arasında virus infeksiyalarının geniş yayıldığını dedi:**

- Tamamilə doğrudur ki, tam sağalmamış, immuniteti bərpa olunmamış uşağın təkrar kollektivə qayıtması həm özünə, həm də ətrafdakı uşaqlara ziyandır, təhlükədir. Uşaq tam sağalmayıbsa, onu kollektivə buraxmaq olmaz. Bu, uşağın daha da zəifləməsinə, ola bilər təkrar hansısa infeksiya ilə yoluxmasına səbəb olacaq. Bədən zəifdir, immunitet bərpa olunmayıb, belə vəziyyətdə orqanizm, özü də uşaq orqanizmi kimi həssas orqanizmlər yoluxmaya tez məruz qalır. Xəstəlik üzərinə xəstəlik, müalicə üzərinə müalicə, uşaq yorulur, usanır, müalicə də effekt vermir. Belə qənaət yaranır ki, uşaq il uzunu xəstədir. Halbuki, uşaqlar lazımi müalicə alsa, ev şəraitində müalicələri davam etsə, həkimin təyin etdiyi müalicəyə bir müddət rejimlə əməl edilsə, qısa zamanda tam sağalar və orqanizm üçün də heç bir təhlükə qalmaz. Uşaqlar vitaminli qidalar qəbul etməlidir, valideynlər maksimum buna çalışmalıdır. Yetərsiz və keyfiyyətsiz qidalanma xəstəliyə dəvətnamə göndərməyə bənzəyir. Uşaq bağçasına, məktəbə gedən balacalara xüsusi diqqət olmalıdır, onların rejimə uyğun, keyfiyyətli qidalanmaları təmin edilməlidir. Uşaq bağçalarında baxıcılar bu işə müəyyən qədər nəzarət edir. Məktəblilərlə isə valideynlər ciddi məşğul olmalıdır. Məktəbli dərsə heç bir halda ac, qidalanmamış getməməlidir. Məktəbdən qayıtdıqdan sonra da uşağa qida və yuxu rejimi tətbiq edilməlidir. Bununla uşağın bədənini möhkəmləndirmək, immunitetini yüksəltmək mümkündür. Meyvə və tərəvəzlərə üstünlük verilməlidir. Gün ərzində maye qəbulu lazımi ölçülərdə olmalıdır. Meyvə və tərəvəzlər, həmçinin saf su həm orqanizmi möhkəmləndirir, həm də beynin normal çalışmasını təmin edir. Qarşıda payız-qış mövsümü var. İndidən uşaqların sağlamlığına, immunitet möhkəmliyinə fikir vermək lazımdır ki, soyuq havalarda mümkün infeksiyalardan sığortalanmış olsunlar.

**Məlahət Rzayeva**

# "Dəmir yumruğun təntənəsi"



## “Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər İctimai Birliyi Mehdiabadda tədbir keçirib”

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə vəsaiti ilə ”Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər” İctimai Birliyinin 2022-ci il kiçik qrant müsabiqəsi çərçivəsində həyata keçirdiyi ”Vətən, sənə canım fəda” layihəsi uğurla davam etdirilir. Layihənin fəaliyyət planına uyğun olaraq sentyabrın 20-də Bakı şəhərində yaradılmış Hərbi Qənimətlər Parkında ”Dəmir yumruğun təntənəsi” adlı ədəbi-bədii görüş keçirilib.**

Tədbirə Abşeron rayonundan start verilib. Mehdiabad qəsəbəsindəki 3 nömrəli tam orta məktəbdən başlanan tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların xatirəsi sükutla anılıb. Sonra məktəbin direktoru Afət Camalova tədbir iştirakçılarının diqqətini son günlər işğaldan azad edilmiş ərazilərdə düşmənin təmas xəttində baş vermiş hadisələrə cəlb edib.

Bildirib ki, sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinin törətdikləri təxribata rəşadətli Azərbaycan Ordusu uğurlu hərbi əməlliyatla layiqli cavab verib. Bu gün parta arxasında əyləşən məktəblilərimizin sabah səngərlərdə vətənimizin keşiyini çəkəcəklərini xatırladaraq, yeni dərs ilində onlara bir daha uğurlar arzulayıb. Vətənə layiqli övlad olacaqlarına əminliyini diqqətə çatdırıb.

Layihə rəhbəri, ”Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər” İctimai Birliyinin sədri Tamxil Ziyəddinoğlu Vətən müharibəsində zəfər çalmaq üçün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı uğurlu hərbi-taktiki manevrlərdən, beynəlxalq ictimaiyyəti Azərbaycanın haqq davasında yanımıza çəkmək üçün diplomatik gedişlərindən, dünyanın aparıcı kütləvi informasiya vasitələrini Azərbaycanın haqq səsini yaymağa necə səfərbər etməsindən danışıb.

XX əsrdə xalqımızın kütləvi terror və qanlı soyqırımlarına məruz qalması, kənd və yer adlarımızı dəyişən erməni vandallarının əcdadlarımızın yaratdığı tarixi abidələri, məscidləri, qalaları dağıdaraq izini itirmələri barədə gənc nəsli məlumatlandırıb. 44 günlük Vətən müharibəsində erməni faşizminin məğlubiyyəti nəticəsində yaranmış hərbi-siyasi vəziyyəti təhlil edib.

Tarixçi müəllim, ”Ordum.az” informasiya portalının redaktoru Siyavuş Əmirli Azərbaycan Ordusunun 27 sentyabr 2020-ci il tarixində başlanan cəbhəboyu təxribatlara əks hücumla göstərdiyi həmlələrdən söz açıb.

Qeyd edib ki, ordumuz qısa müddətdə 300-dən çox şəhər və kəndimizi döyüş meydanında azad etdi. Eyforiyaya qapılmış Ermənistan ordusunun onurğa sütunu isə Şuşa uğrunda gedən əlbəyaxa döyüşdə qırıldı. Məğlub ordusunu tamamilə məhv olmaqdan xilas etmək üçün Ermənistanın Baş naziri Nikol Paşinyan noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Nəticədə Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissələrini döyüşsüz geri aldıq. Bu uğurlardan sonra dekabrın 10-da Bakının Azadlıq Meydanında Qələbə Paradı keçirildi. Azərbaycanın qələbəsi şərəfinə keçirilən tarixi hərbi paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı Türkiyənin əsgər və zabitləri də iştirak etdilər. Paradı Ali Baş Komandan İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etdi. Bu qürurverici məqamlardan sonra - 12 aprel 2021-ci ildə isə Bakıda düşmənə göz dağı verən Hərbi Qənimətlər Parkı açıldı.

Mehdiabad qəsəbəsində yerləşən 3 nömrəli tam orta məktəbin hərbi-rəhbəri, baş leytenant Hidayət Nağıyev 44 günlük müharibədə silahlı qüvvələrimizin məhv etdiyi və düşməndən qənimət götürdüyü, Hərbi Qənimətlər Parkında sərgilənən hərbi texnikalar barədə məlumat verib. Bildirib ki, döyüş meydanında düşmənin məhv edilən canlı qüvvəsilə bərabər 125 artilleriya topu, 366 tankı, 7 ”S-300” zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını, digər texnikaları məhv edilib və qənimət kimi götürülüb.

Tədbirin rəsmi hissəsindən sonra məktəbli gənclərə ”Vətən, sənə canım fəda” layihəsi çərçivəsində hazırlanmış ”Zəfərdən- zəfərə” adlı buklet və Tamxil Ziyəddinoğlunun ”Güllə səsinə açılan qapı” kitabı hədiyyə edilib. Daha sonra layihə iştirakçıları Azərbaycan himninin sədaları altında Hərbi Qənimətlər Parkına ekskursiyaya yollanıblar.

**Azad**



# "Soliton" məhsuluna sahib durmur

## Müştəriyə ölüm saçan paltaryuyan satılıb

**”Soliton” şirkətindən şikayət var.**

**Bu barədə ”Şərq”ə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məlumat verib.**

Şikayətçi ”Soliton” mağazalar şəbəkəsinin Nərimanov rayonu, Azadlıq 145b ünvanında yerləşən filialından paltaryuyan maşın alıb. Vətəndaş iddia edir ki, 1199 manat dəyərində paltaryuyan maşının gövdəsinə elektrik cərəyanı olduğuna görə toxunmaq mümkün deyil: ”Qarşı tərəf binada torpaqlama olmadığından cərəyanın korpusa ötürüldüyünü söylədi. İzah etdim ki, torpaqlanma yalnız qəza rejimində gərəklidir. Saz avadanlığın korpusa cərəyan ötürməsi normal deyil. Məhsul qüsurludur. Malı gəlib götürməklərini istədim. Dəfələrlə qaynar xətlə əlaqə saxlasam da, heç bir müsbət cavab almadım. Torpaqlanma hər dəfə bəhanə gətirilir. Paltaryuyanı işlətmədiyimiz isə məlumdur. Çünki cihaza yaxın durmaq qorxuludur”.

Şikayətçi ödədiyi məbləğin və təhlükəli məhsulun geri qaytarılmasını tələb edir.

*Qeyd edək ki, şikayətçiyə məhsulla bağlı 1 illik zəmanət talonu da verilib.*

**Aygün Tahir**

# Bir, iki seansla qazilər sağalmır

## Müharibə insanları daimi nəzarətdə olmalı, psixoloji reabilitasiyadan keçməlidir



**Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən müharibədən və erməni terrorundan fiziki-mənəvi zərər görmüş vətəndaşlara psixoloji yardım davam etdirilir.**

Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan müharibə iştirakçılarının, o cümlədən qazilərin, doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə yenidən Türkiyədən gəlmiş 20 nəfərdən artıq peşəkar psixoloq FHN-in mütəxəssisləri ilə birgə sentyabrın 5-dən etibarən psixoloji yardım işinə başlayıblar.

Bu barədə jurnalistlərə açıqlama verən Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin rəisi, tibb xidməti polkovniki Xanım Sofiyevanın sözlərinə görə, ötən müddət ərzində 345 vətəndaşa, o cümlədən 33 uşağa 511 seans psixoloji yardım göstərilib.

Son iki il ərzində isə Bakıda, Gəncədə, Lənkəranda, Qəbələdə və Sumqayıtda 2200-dən çox qazinin psixoloji müalicəsi həyata keçirilib.

**Türkiyədən Azərbaycana gələn 21 nəfərlik psixoloq qrupunun rəhbəri Selcuk Demirtaş isə nəticələrin müsbət olduğundan bəhs edib:** ”Müharibədən gələn qazilərdə travma sonrası stres problemi deyilən bir sindrom yaranıb. Müharibə səbəbilə insanların aldığı travmalarda müxtəlif simptomlar olur. Bu simptomların ən əsası yuxusuzluq, daha sonra ciddi baş ağrıları, diksinərək yuxudan oyanma, aqressivlik kimi hallardır. Qazilər yenidən müayinəyə gəldiyi zaman bu problemlərin bir çoxunun aradan qalxdığını müşahidə edirik.

***Azad İsazadə: "Biz onlarla işləyirik və görürük ki, bu insanlar arasında ailə zorakılığı həddindən artıq çoxalıb. Özləri də bunu etiraf edirlər"***

Seansların 6 ay ərzində davam etməsi nəzərdə tutulub. Amma müraciət artdıqca müayinələrə davam edəcəyik. Hazırda 21 nəfərik və Fövqəladə Hallar Nazirliyinin 7 psixoloqu ilə birgə 6 şəhərdə xidmət göstəririk”.

**Ölkəmizdə müharibə iştirakçılarına psixoloji yardım edən hərbi ekspert, psixoloq Azad İsazadə isə ”Şərq”ə açıqlamasında bu sahədə görüləcək işlərin hələ çox olduğunu deyib:** ”Bu insanların hər biri müharibədə insan öldürüb, dostlarını itirib, ölüm qorxusuyla yaşayıb, daimi aqressiv vəziyyətdə olub. Vaxtilə hərbi psixologiya qurumu olmadığına görə hərbçilərimizlə hərbi hissələrdə psixoloji iş aparılmayıb. Bunlar ordudan qorxu və aqressiyayla ailələrinə qayıdıblar. Düzdür, eləsi var müharibə müddətində yaralanmayıb, amma reallıqda o qazidir, psixoloji travma keçirib və 2 ilə yaxındır ki, bu vəziyyətdə yaşayıb.

Düzdür, Türkiyədən dəvət olunan psixoloq qrupunun köməyi ilə ölkəmizdə müharibə travması almış şəxslərə pis-yaxşı psixoloji dəstək göstərilir, amma say azdır və bunu fiziki baxımından çatdırmaq mümkün deyil. Bu reabilitasiyanı mütəmadi aparmaq lazımdır, yəni bir-iki görüş konsultativi, dərmanla bu məsələni həll etmək mümkün deyil.

Biz onlarla işləyirik və görürük ki, bu insanlar arasında ailə zorakılığı həddindən artıq çoxalıb. Özləri də bunu etiraf edirlər. Ona görə bu insanlara həddindən artıq çox böyük proqram formasında psixososial reabilitasiyalar lazımdır”.

**Psixoloqun sözlərinə görə, sadəcə əsgərlər deyil, müharibə görmüş və travma almış hər kəs psixoloji yardım almalı və gələcəkdə ehtiyac yarandıqda psixososial reabilitasiya keçməlidir:** ”Bunun üçün də ölkəmizdə müharibə travması almış şəxslərə psixoloji dəstək göstərən mərkəzlərin sayı artırılmalıdır ki, daha əlçatan olsunlar. Bu gün böyük şəhərlərdə belə mərkəzlər yaranıb. İştirakçıların 50 faizi yəqin ki, rayon və kəndlərdə yaşayır. Onların bu yardıma əlləri çatmır. Bəzən belə yardımların olduğunu və hardasa göstərildiyini bilmirlər. Yaxşı olardı ki, türk psixoloqları gəlsin və hansısa konkret fərdə real kömək etsinlər. Amma biz başa düşməliyik ki, bu proses uzun müddətlidir. Bu problemlər 1-2 ildən sonra da olacaq, hansısa başqa formada. Sözsüz ki, zərərçəkmiş əhaliyə yerlərdə yardımı yaxınlaşdırmaq lazımdır. Eyni zamanda beyinlərdəki stereotiplər qırılmalıdır. Yanımıza gələn qazilər belə inanmırlar ki, biz onlara kömək edə bilərik. Sadəcə, kimsə məsləhət görüb gəliblər. Bizə şübhəylə yaxınlaşırlar. Bizim marağımız nədir və onlardan nə umacağıq? Amma birinci görüş zamanı görürlər ki, biz ona qulaq asırıq, danışmağa imkan veririk. Biləndə ki, bu yardım pulsuzdur və onlardan heç nə gözləmirik, o zaman görürük ki, onlar yavaş-yavaş yumşalırlar”.

**Şəymən**

# Şəbnəm İsraildə konsert verəcək!

## Soydaşlarımız onun qərarından narazıdır



**Müğənni Şəbnəm Tovuzlu İsraildə konsert verəcək.**

”Şərq” xəbər verir ki, sosial şəbəkə istifadəçiləri müğənninin bu addımını tənqid ediblər.

İstifadəçilər ”Ermənistanın təxribatları nəticəsində şəhid olan azərbaycanlıların xatirəsinə hörmətsizlikdir”, ”rəzalət” kimi rəylər yazıblar.

Məlumata görə, İsraildə yaşayan soydaşlarımız da konsertin gerçəkləşməsinə etirazını bildirib.

Qeyd edək ki, sənətçi konserti azərbaycanlı müğənni Elvin Babazadə ilə birlikdə verəcək. Konsert 21 sentyabrda İsrailin Aryuda şəhərində, restoranda baş tutacaq.

**Aygün Tahir**


**Elan**

Həsənova Sara Arif qızına məxsus AAF park, küçə 25, bina 3, mənzil 37-yə verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Nuriyev Cəsarət Atabəy oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.


# Sürücü-sərnişin qarşıdurması...

## Problemin qarşısını cəza ilə almaq mümkün deyil

**Bakıda avtobus sürücüsünə qarşı xuliqanlıq edən Elnarə Vəliyevanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Xatırladaq ki, hadisə Səbail rayonu Ö.F.Nemanzadə küçəsində yerləşən dayanacaqda qeydə alınmışdı.**

Elnarə Vəliyeva dayanacaqda 6 nömrəli avtobusa minib. Qadın avtobusların gec gəldiyindən işə gecikdiyini bildirib və sürücüdən avtobusu hərəkət etdirməyini tələb edib. Sürücü Elmir Mirzəyev isə avtobusu qrafik üzrə hərəkət etdirməli olduğunu sərnişinin diqqətinə çatdırıb. Bundan sonra tərəflər arasında mübahisə düşüb. Elnarə Vəliyeva çantasında olan qozçəkən alətlə sürücüyə zərbələr vurub. Nəticədə sürücü baş nahiyəsindən xəsarət alıb. Hadisə ilə bağlı Elnarə Vəliyevaya qarşı Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılmışdı. Dünən Səbail Rayon Məhkəməsində hakim Günel Səmədovanın sədrliyi ilə keçirilən prosesdə müttəhimə hökm oxunub. Hökmə əsasən, Elnarə Vəliyeva 1 il 11 ay müddətinə azadlıqdan məhrum edilib. Ona Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilib və barəsində 1 il sınaq müddəti seçilib.

Sərnişinin cəzalanması sürücü-sərnişin münasibətlərinin normallaşması, ictimai nəqliyyatda etik davranış qaydalarına riayət edilməsi üçün müsbət president ola bilərmi?



***“Gərək bütün ictimai nəqliyyat tamamilə nağdsız ödəniş sisteminə keçsin”***

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov ”Şərq”ə açıqlamasında qadın sərnişinin cinayət məsuliyyətinə cəlb edilməsinin ictimai nəqliyyatda qayda-qanun yaradacağını güman etmədiyini bildirdi:**

- Düşünmürəm ki, sərnişinin məsuliyyətə cəlb edilməsi sürücü-sərnişin münasibətlərinin yaxşılaşması, yaxud da ictimai nəqliyyatda etik davranış qaydalarına daha artıq riayət edilməsi üçün müsbət bir president olsun. Sürücülər təlimata uyğun davranmalıdır. Əgər sərnişin qaydalara zidd tələb irəli sürürsə, sürücü əvvəlcə sakit bir şəkildə bunu sərnişinin nəzərinə çatdırmalıdır. Sərnişin qanunsuz tələbində israr edirsə, sürücü avtobusu kənara çəkib saxlamalı və sərnişindən avtobusu tərk etməsini tələb etməlidir. Sərnişin buna rəğmən yenə də qeyri-adekvat davranış sərgiləyirsə, sürücü polisə müraciət etməli və sərnişin barəsində hüquqi çərçivədə ölçü götürülməlidir. Bəli, sərnişinlərlə sürücü arasında təəssüf ki, xoşagəlməz münasibətlərin, kobud davranışların şahidi oluruq. Bu, belə də davam edəcək, o vaxta qədər ki, ictimai nəqliyyat tamamilə nağdsız ödəniş sisteminə keçəcək. ”Bakıkart”la işləyən avtobuslarda biz sürücü-sərnişin qarşıdurmasının az şahidi oluruq. Hamı artıq anlayıb ki, kartla işləyən avtobuslar dayancaqdan kənar saxlamır və müəyyən edilmiş qrafiklə çalışır. Hansı avtobuslarda nağd ödənişlər hələ də qalmaqdadır, qarşıdurmalar ən çox orada yaşanır. Sərnişin dayanacaqdan kənarda avtobusdan enmək istəyir, sürücü etiraz edir, sərnişinlər də ”bayaq niyə saxlamışdın?! Özünüzə sərf edəndə harada istəsəniz saxlayırsınız...” belə təpkilər göstərir. Sərnişinlər narazı qalır, sürücü əsəbiləşir. Nağd ödənişlə çalışan sürücülər qrafikdən kənara çıxır, sərnişin toplamaq üçün gah sürəti artırır, gah azaldır, intervalı gah uzadır, gah da ildırım sürəti ilə hərəkət edirlər. Paytaxtda bu problem 80 faiz həllini tapıb, Sumqayıtda isə vəziyyət hələ də bərbaddır. İctimai nəqliyyat nağd ödənişlə fəaliyyət göstərir, ona görə də sürücü-sərnişin qarşıdurmaları yaranır.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2692



## İtləri də Kraliça ilə vidalaşdı

### Saray məmurları heyvanı bağlarında saxlayıb

**İt sevgisi ilə tanınan və korgi cinsli itləri olan Kraliça Elizabetin vida günündə son iki iti Vindzor qəsrinə tabut yürüşü zamanı, sanki sahibinin dönüşünü gözləyirmiş kimi peyda olub.**

Muick və Sandi adlı itlər Kraliçanın cəsədi olan Müqəddəs Georgi Kapellasına yaxınlaşarkən Vindzor qəsrinin həyətində görünüblər. Saray məmurları itləri bağlarında saxlayıblar.

Bu arada, kraliçanın ponisi Emma da parad zamanı çəmənlikdə dayanıb.

70 il hökmranlıq edən və 96 yaşında vəfat edən Kraliça 40 il Fell Pony İcmasının rəhbəri olub.

Kraliçanın ilk korgis iti Syuzan olub, Kraliçaya 18-ci ad günündə hədiyyə edilib. Sonrakı illərdə Syuzan nəslinin 30-dan çox iti var idi. Kraliça bu cinsin populyarlığına böyük təkan verdi.

Kraliçanın itləri tez-tez onunla birlikdə kral iqamətgahında və sarayda görünürdü.

Kraliçanın ölümündən sonra iki iti Şahzadə Endryu və onun keçmiş həyat yoldaşı York hersoginyası Saraya həvalə edilib.

**Turan**

## Keyt Uinslet xəstəxanalıq oldu



**İngiltərəli aktrisa Keyt Uinsletin başına iş gəlib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, aktrisa Xorvatiyada çəkilən "Lee" filminin çəkilişi zamanı qəza keçirib. Sürüşdüyü üçün yerə yıxılan Keyt xəstəxanaya aparılıb. 46 yaşlı aktrisanın vəziyyəti yaxşı olsa da, tədbirli olmaq üçün müşahidə altında saxlanılır. O, bu həftə çəkilişlərə davam edəcək.

## Qulaq ağrısı ilə xəstəxanaya apardılar

### Beyinə qan sızan 6 yaşlı uşağın həyatını xilas etmək mümkün olmayıb



**İzmirdə qulaq ağrısı ilə xəstəxanaya aparılan və beyin qanaması diaqnozu qoyulan İsmail Asəf Temel (6) reanimasiyada 12 gün həyat mücadiləsi verib.**

**Temel ailəsinin oğlu İsmail Asəf sentyabrın 9-da qulağının şiddətli ağrıdığını deyib. Ailəsi tərəfindən xəstəxanaya aparılan Asəfin beyninə qan sızması müəyyən edilib. 12 gün reanimasiyada müalicə alan və həyatda qalmaq üçün mübarizə aparan Asəf bütün müdaxilələrə baxmayaraq gecə saatlarında dünyasını dəyişib.**

**Turan**

## Mayk Tayson əlil arabasında

### Əfsanəvi boksçunun siniri zədələnib



**Əfsanəvi boksçu Mayk Tayson ötən ay əlil arabasında görünməsinin səbəbini açıqlayıb.**

**Olay xəbər verir ki, kürəyindəki sinir zədələnməsi səbəbindən əlil arabasında oturmaq məcburiyyətində qaldığını bildirən Tayson siyatik xəstəliyini keçirdiyini bildirib.**

**"Newsmax" TV-yə danışan boksçu "Siyatik adlı xəstəliyim var. Ağrılarım şiddətli olanda danışa bilmirəm. Xoşbəxtlikdən bu, məndə olan yeganə xəstəlikdir. Hazırda özümü əla hiss edirəm", deyib.**

***Qeyd edək ki, siyatik xəstəliyi sinirlərin gərginliyi və ya sıxılması nəticəsində beldən bud nahiyəsinə və bud arxasına yayılan ağrı, uyuşma, uzanma və bəzən qarıncalanma narahatlığıdır.***

## Yeni iddialar ortaya çıxıb

### Hadisə indi də Rza Zarrabla sevgilidir



**İş adamı Mehmet Dinçerlerdən boşanma ərəfəsində olan türkiyəli məşhur müğənni Hadisə ilə bağlı yeni iddialar ortaya çıxıb.**

**Axşam.az xəbər verir ki, bu barədə "Söyləməzsəm olmaz" verilişində aparıcı Arto deyib. O, ifaçının Cənubi azərbaycanlı iş adamı Rza Zarrabla birlikdə olduğunu deyib. Arto məlumatı yaxın çevrəsindən təsdiqlədiyini və münasibətin yeni olduğunu vurğulayıb.**

***Qeyd edək ki, iki il əvvəl də Hadisənin adı R.Zarrabla hallanıb. Hətta Hadisənin keçmiş sevgilisi aktyor Kaan Yıldırım ifaçıdan məhz buna görə ayrıldığını bildirib. Həmin ərəfələrdə iş adamı ilə müğənni Ebru Gündeş yeni boşanmışdı və o, bu münasibət haqqında Kaana xəbər vermişdi. Hətta bu xəbərdən sonra Hadisə Ebru ilə birlikdə münsif kürsüsündə oturduğu "O səs Türkiyə"dən ayrılıb.***



# Ailənin ilk övladı niyə daha tez böyüyür?

### Alimlər uzun müddətli araşdırmanın nəticələrini açıqlayıb

**Məlahət Rzayeva**

**Mütəxəssislər uzun müddətli araşdırmalar nəticəsində ailənin ilk övladının niyə sonrakı uşaqlardan daha tez böyüməsinin səbəbini müəyyənləşdirib. İlk övladdan sonra ailəyə daha bir və ya bir neçə körpənin gəlişi birinci uşağın beyninə güclü təsir edir.**

"Mən ondan əvvəl gəlmişəm. Mən ondan böyüyəm", düşünən uşaqda zehni inkişafla bərabər fiziki inkişaf da sürətlənir. Bu təkcə ilk övladın eqoizmi sayılmamalıdır. Ata-ananın ilk övladı olmaq uşaqda şüuraltı təsir buraxır. İlk övlad özündən kiçik qardaş və ya bacısının həm də ilk baxıcısına, qulluq edəninə, eyni zamanda onun müdafiəçisinə çevrilir. Kiçik qardaş-bacısına görə qonşu uşaqlarla dalaşan, döyülən böyük qardaş-bacını heçmi görmədiniz? Əlbəttə, görmüsünüz. Bu, ailənin ilk övladının üzərinə kimsənin deyil, şüuraltını qoyduğu təməl vəzifədir. "Qardaşını qoru, kimsə ona sataşmasın", deməyən valideynlər də var. Sadəcə, böyük qardaş-bacı bu qoruyucu vəzifəsini əksər hallarda könüllü daşıyır. Özlərini böyük, qardaş-bacısının qoruyucusu hiss etdiklərindən ilk övladlarda tez böyümə istəyi də böyük olur və bu istək nəticəsində də onlar həqiqətən tez boy atır, ərgənliyə daha erkən çatırlar. Ailənin ilk övladında həm də özündən sonra gələn körpəyə qısqanclıq da olur. Burada isə daha çox valideynlər günahkardır. Valideynlər bəzən fərqinə varmadan ikinci uşağa daha çox diqqət ayırır ki, bu da əvvəlki uşağın heç xoşuna gəlmir. Kiçik qardaş-bacıya qarşı aqressiv hərəkətlərə də bu qısqanclıq səbəb olur. Mütəxəssislər tövsiyə edir ki, ailəyə ikinci uşaq daxil olduqda, birincinin oyuncaqlarından, yatağından ikinci üçün istifadə etmək istəyirsinizsə, bunu birinci övladdan xahiş etməlisiniz. İlk övlad "ikinci gəldi, oyuncaqlarıma, yatağıma, ata-anama sahib çıxdı" düşüncəsində olmamalıdır. Ona mehribancasına "bu sənin kiçik qardaşındır, bacındır, onun sənin yatağına ehtiyacı var" söyləyərək müsbət ortam yaratmalısınız. Ailədə ikinci, üçüncü uşaqlara görə ilk övladı vəzifələndirmək də doğru deyil. "Bu sənin kiçik qardaşın, bacındır və onu qorumaq, ata-anaya kömək etmək sənin üzərinə düşür" deyib uşağa yaşından böyük vəzifələr vermək onun uşaqlıq illərinin əlindən alınması deməkdir və bu, gələcəkdə natamamlıq kompleksinə yol aça bilər. Valideynlər hər bir övladın sağlam şərtlər daxilində böyüməsinə, onda müsbət eqonun yaranmasına yardım etməlidir. Əgər ailənin böyük övladı istəyərək anasına körpə baxımında yardım edirsə, bu, yaxşı cəhətdir. Lakin heç bir halda uşağı, körpə bacı-qardaşına baxıcı təyin etməyin. O, bu işləri özü istəyərək etməlidir. Məcburiyyət qarşısında görülən iş gələcəkdə böyük qardaş-bacının kiçiklər üzərində mənasız, yersiz hökmranlığına gətirib çıxara bilər: "sənə mən baxmışam, "analıq", "atalıq" etmişəm, haqqım ödənməz!". Valideynlər tərəfindən böyük övladın daim tənbeh edilməsi də övladlar arasında mehribanlığı pozur. "Sən böyüksən, gərək qardaşına nəzarət edəydin" kimi təpkiləri böyük övladlar xoş qarşılamır və bu məsuliyyətdən yorulur, ondan xilas olmağa çalışırlar. Bu isə gələcəkdə böyük övladın kiçiklərə, lazımi məqamda yardımçı olmamasına "vaxtında onu çox qorumuşam, indi özünü müdafiə etsin" kimi zərərli vərdişlərə gətirib çıxarır. Ona görə də hər xətanı böyük övlada yükləməkdən çəkinin. Övladlar valideynlərdən bərabər sevgi və bərabər də yardım görməlidir. Əks halda biri özünü digərindən daha az sevilən və daha az yardım alan hiss edəcək, bu da qardaş-bacılar arasında münasibətlərin pozulmasına səbəb olacaq.







# Dondurulmuş qidalar ölüm saçır

### "1 qram 1 milyon insanı öldürəcək qədər güclüdür"

**Yayda üstünlük verilən qidaları qış boyu sağlam şəkildə istehlak etmək üçün ən praktik və ümumi həll yolu onu dondurmaqdır. Amma iş yalnız qidanı dondurmaqla bitmir. "Şərq" türk mediasına istinadən xəbər verir ki, hər bir qida istehlakdan əvvəl təhlükəsiz şəkildə dondurulmalı və düzgün şəkildə əridilməlidir. "Bir qramı belə 1 milyon insanı öldürəcək qədər güclüdür" deyən qida mühəndisi Ebru Akdağ həyati əhəmiyyətli məlumatları paylaşıb.**

Akdağın sözlərinə görə, bəzi məsələlərə xüsusi diqqət yetirilməlidir:

- Ərimə zamanı suyun digər qidalarla təmasda olmaması üçün xüsusi qab olmalıdır.

- Mikrodalğalı sobanın təlimatı düzgün vaxt və temperatur üçün qurulmalıdır.

- Soyuq su ilə doldurulmuş qabda ərimə zamanı su qızararsa, təzələnməlidir.

- Yeməyi bişirə biləcəyiniz qədər dondurmağınız vacibdir.

"Dərin dolablarda dondurulmuş qidalarda mikroorqanizm böyüməsi dayanır, əridikdən sonra çoxalma sürətlə başlayır. Bu səbəbdən ərimə çox vacibdir" deyən Akdağ, dondurulmuş qidaların yalnız bir dəfə əridilməsi və dərhal da istifadə edilməsinin lazım olduğunu vurğulayır. Ərimiş yemək əsla yenidən dondurulmamalıdır. Əks halda bu qidalarda mikroorqanizmlər çoxalacaq və insanlar bu qidaları qəbul etdikdə qida zəhərlənməsi riski ilə üzləşəcəklər.

- Toyuq ətini parçalara ayırıb dondurmaq lazımdır. Əsas prinsip ərimiş yeməyi yenidən dondurmamaqdır.

- Təsdiqlənmiş və istehsal tarixi olan toyuqlar etibarlı yerlərdən alınmalıdır.

- Toyuq çöldə saxlanılmamalıdır. Alış-verişdən dərhal sonra dondurucuya qoyulmalıdır.

- Toyuq əti soyuducuya qoyulacaqsa, iki gün ərzində bişirilməlidir.

- Toyuğu bazardan aldıqdan sonra saatlarla torbalarda saxlamaq olmaz.

**Turan**

## Birdəfəlik istifadə olunan qablar xərçəng yaradır

### Türkiyənin alimi həyəcan təbili çalıb



**Karton fincanların təhlükəsi nədir?**

"Şərq" "CNN Türk"ə istinadən xəbər verir ki, bu barədə ürək-damar xəstəlikləri mütəxəssisi Dəmət Ərciyes bildirib.

Kağız fincanlar yüngül və birdəfəlik istifadə üçün ən asan vasitədir. Gigiyena baxımından da daha praktik görünür, amma sağlamlığımıza bəzi təhlükələr yarada bilir.

"Mikroplastiklərin" insan bədəni üçün çox zərərli olduğu hər kəsə məlumdur. Xüsusilə də içində isti yemək və ya içki olan qida və mayeləri orqanizm qəbul edir. Daha sonra estrogen hormonlarına mənfi təsir göstərir. Həmçinin piylənmə, diabet və immunitetin zəifləməsinə səbəb olur. Təbii ki, bu materialdan hazırlanan qabların əks təsirlərini dərhal görmürük. Kəskin bir xəstəlik kimi özünü büruzə vermir. Amma zamanla irəliləyir.

**Sücayət Mehti**

## Koronavirus finiş xəttinə yaxınlaşır

### "Biz epidemiyaya son qoymaq üçün heç vaxt indiki kimi yaxşı vəziyyətdə olmamışıq"



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Dr. Hans Kluge, "Covid-19"un yeni bir variantı ortaya çıxmayacağı təqdirdə epidemiyanın tezliklə bitəcəyini söyləyib.**

İslandiyada yayımlanan RUV televiziyasına danışan Kluge bildirib ki, ÜST-nin baş direktoru Tedros Adhanom Qebreyesusun "Covid-19" epidemiyasında finiş xətti göründü" ifadələrini dəyərləndirib.

Qebreyesusun açıqlamaları ilə razılaşdığını bildirən Kluge, "Yeni bir variant ortaya çıxmasa, epidemiya tezliklə bitə bilər. Bu barədə ümidli olmalıyıq" deyib.

Kluge, hər kəsə qarşıdan gələn qışdan əvvəl "Covid-19" peyvəndinin yeni gücləndirici dozasını almağı tövsiyə edib.

ÜST-nin baş direktoru Qebreyesus sentyabrın 14-də verdiyi açıqlamada, "Biz epidemiyaya son qoymaq üçün heç vaxt indiki kimi yaxşı vəziyyətdə olmamışıq. Sonu görürük, amma orada deyilik" deyə bildirib. "Covid-19" ilə mübarizədə finiş xəttinə yaxınlaşdığını söyləyən Qebreyesus bunları deyib: "Bu vəziyyətdə edə biləcəyimiz ən pis şey dayanmaqdır. Daha sürətli qaçıb finiş xəttini keçməliyik".

**Turan**